www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5 yanvar 2016-cı il Çərşənbə axşamı № 1 (6322) Qiyməti 50 qəpik

**Xəbər**

## Balakəndə zavod partladı; 1 ölü, 2 yaralı

yazısı səh.14-də

**Gündəm**

### "MTN işi" XİN-ə də sıçradı - Pakistandakı səfirin geri çağırılmasının sirri


İlqar Əliyev

Diplomat Daşqın Şikarovla Eldar Mahmudovun əlaqələrini özünü təcridxanada asan polkovnik İlqar Əliyev həyata keçirib

yazısı səh.12-də

### Qərblə barışmağın tək yolu - islahatlara getmək

yazısı səh.12-də

### Rüşvət alması gizli kamera ilə çəkilən nazirlik rəsmisi həbsdən azad edildi

yazısı səh.5-də

### Qəzetlər çıxış yolu axtarır: baş redaktorlar nə düşünür?

yazısı səh.3-də

### Dövlət Neft Fondu yüksək riskli aktivlərə yatırım edəcək?

yazısı səh.11-də

### Hakimiyyətə yaxın deputatdan yeni dəyişikliklər anonsu

yazısı səh.7-də

### Neftin gələcəyi barədə bədbin proqnozlar

yazısı səh.4-də

### Daşkəsəndə qarlı-çovğunlu Yeni il şənliyi

yazısı səh.3-də

### Spirtli içkilərin kartla satışı: narazılar da var, razılar da...

yazısı səh.11-də

### "Növbəti altı ayda devalvasiya olmayacaq, amma..."

yazısı səh.4-də

### Kürd dövlətinin yaranması real deyil, çünki...

yazısı səh.9-da

## Prezidentin 2016-cı il planı masada

# HÖKUMƏT ANTİBÖHRAN PROQRAMINA KEÇDİ - İXTİSARLAR BAŞLADI

Neftin xeyli ucuzlaşması hökuməti radikal islahatlara məcbur edir; bir neçə nazirlik və dövlət komitəsinin birləşdirilməsi gözlənilir; ixtisarlar ölkədə sosial gərginliyi artıra, eləcə də hakimiyyət daxilində narazılıqları tətikləyə bilər...




yazısı səh.8-də

## Şiə şeyxinin edamı Bakını zor seçimə tuş etdi - ilginc gəlişmə

Azərbaycanın İslam koalisiyasına qoşulma perspektivi gündəmdən çıxır? Səudiyyə Ərəbistanı-İran qarşıdurması məzhəb savaşı yox, maraqlar savaşıdırsa, rəsmi Bakı üçün prioritet nə olmalıdır...

yazısı səh.9-da



### Kərəm Mustafayevin ətrafında gizli həbs dalğası - şok gəlişmə

yazısı səh.5-də



### Tofiq Zülfüqarov Elmar Məmmədyarova qarşı

yazısı səh.6-da


İlham Şaban

### Neft mütəxəssisindən ilginc hesablama və açıqlamalar

yazısı səh.10-da



# Jurnalisti döyüb öldürənlərin məhkəməsi başlayır

## Vəkil Əsabəli Mustafayev:

### "Aparılan istintaq bizi qane etmədi"

**Yanvarın 5-də Bakı Ağır Cinayətlər Məhkəməsində döyülərək öldürülən jurnalist Rasim Əliyevin işi üzrə məhkəmə prosesi başlayır. Hakim Eldar İsmayılovun sədrliyi ilə ilkin məhkəmə hazırlıq iclası saat 15:00-a təyin olunub.**

Qeyd edək ki, jurnalisti öldürməkdə 5 nəfər təqsirləndirilir. Bunlardan Kənan Mədətov, Camal Məmmədov və Samir Mustafayev Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma, zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda), Elşən İsmayılov və Arif Əliyev isə, həmin Məcəllənin 126.3 və 177.1-ci (oğurluq) maddələri üzrə ittiham olunurlar. Cinayətdə adı keçən "Qəbələ" futbol klubunun sabiq kapitanı Cavid Hüseynovun işi ayrı icraata götürülüb. O, Cinayət Məcəlləsinin 307.1 (ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməmə) və 307.2-ci (qabaqcadan vəd etmədən ağır cinayəti gizlətmə) maddələri ilə təqsirləndirilir. Futbolçunun işinə Səbayel Rayon Məhkəməsi baxacaq. Prosesin başlama vaxtı məlum deyil.

**Zərərçəkmiş tərəfin vəkili Əsabəli Mustafayev "Yeni Müsavat"a açıqlamasında məhkəmə prosesində baxılacaq məsələlərə toxundu:** "Adətən hazırlıq iclaslarında işə mahiyyəti üzrə baxılmır. İstintaqın gedişində qanun pozuntusuna yol verilib-verilməməsinə, işin təzədən istintaqa qaytarılıb-qaytarılmamasına, işə həmin məhkəmənin baxmasının doğru olub-olmamasına baxılacaq. Yəqin ki, müdafiə və zərərçəkmiş tərəf müxtəlif məzmunlu vəsatətlər verəcəklər. İşin mahiyyəti üzrə yox, sübutlar, şahidlər, sübutlar siyahısı ilə bağlı vəsatətlər ola bilər. Tutaq ki, hər hansı bir sübutun xaric olunması, yaxud əlavə olunması kimi hallar da ola bilər. Bütün bu məsələlər üzrə işə baxılandan sonra, işin mahiyyəti üzrə baxılması təyin olunacaq. Bu barədə qərar qəbul olunacaq".

**Vəkil ilkin istintaq dövründən narazı qaldıqlarını dilə gətirdi:** "Aparılan istintaq bizi qane etmədi. Zərərçəkmiş tərəfi nəzərdə tuturam. Həmişə demişik, yenə də deyirəm ki, bizi iki amil qane etmir: əsasən həkimlər barədə heç bir ittihamın irəli sürülməməsi, onların hərəkətlərinə heç bir hüquqi qiymətin verilməməsi və Cavid Hüseynovun işi üzrə cinayət işinin ayrılması. Bu hallar bizi ciddi narahat edir. Yəqin ki, məhkəmədə bununla bağlı fikirlərimizi bildirəcəyik".

Xatırladaq ki, R.Əliyev facebookda C.Hüseynovla bağlı yazdığı statusa görə avqustun 8-də futbolçuya yaxın şəxslər tərəfindən döyülüb. Jurnalistin döyülmə anı həmin ərazidəki nəzarət kameralarına düşüb. Aldığı xəsarətlərdən R.Əliyev avqustun 9-da gecə saatlarında 1 saylı Şəhər Kliniki Xəstəxanasında dünyasını dəyişib.

❑ Cavanşir ABBASLI

# Rusiya Baş Kəşfiyyat İdarəsinin rəisi öldü



İqor Serqun

**Rusiya Silahlı Qüvvələri Baş Qərargahı Baş Kəşfiyyat İdarəsinin rəisi İqor Serqun dünyasını dəyişib. Virtualaz.org bildirir ki, bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb. Məlumatda bildirilir ki, Rusiya prezidenti Vladimir Putin 58 yaşlı general-polkovnikin ölümü ilə bağlı mərhumun qohumlarına və yaxınlarına başsağlığı verib.**

İqor Serqun Suvorov adına Moskva Hərbi Məktəbini, RSFSR Ali Soveti adına Moskva Ali Hərbi Komandanlıq Məktəbini, Sovet ordusunun Hərbi Akademiyasını, Rusiya Federasiyası Silahlı Qüvvələri Baş Qərargahının Hərbi Akademiyasını bitirmişdi və hərbi elmlər namizədi idi.

İ. Serqun 2011-ci ildə Rusiya Silahlı Qüvvələri Baş Qərargahı Baş Kəşfiyyat İdarəsinin rəisi-Baş Qərargah rəisinin müavini təyin olunmuşdu. O, 21 fevral 2015-ci ildə general-polkovnik rütbəsi almışdı.

# "Günəşli" faciəsində itkin düşən ən yaşlı neftçilərin meyiti Bakıya gətirildi



**"Günəşli" faciəsinin 1 ayının tamamında Türkmənistan sahillərində tapılan iki neftçinin cənazəsi Bakıya gətirilib. Musavat.com-xəbər verir ki, Türkmənistan sahillərindən 65-70 km uzaqlıqda tapılan neftçilərin cəsədini Bakıya gətirmək üçün qonşu ölkəyə yola düşən Fövqəladə Hallar Nazirliyinin "BE-200ÇS" amfibiya tipli təyyarəsi yanvarın 4-də axşam saatlarında geri qayıdıb.**

Təyyarə AZAL-ın Zabratdakı vertolyot meydançasından Türkmənistana yola düşüb. Təyyarənin Zabrata eniş etdiyi bildirilir.

Cənazələri tapılan neftçilər-Quliyev Əzizağa Nöhbala oğlu və Abdullayev Adil Ələkbər oğludur. Onlar ötən il dekabrın 4-də baş qəza zamanı platformada olan ən yaşlı 2 neftçi olublar. Hər ikisi 1953-cü il təvəllüdlüdür.

Xatırladaq ki, 2015-ci il dekabrın 4-də saat 17:40 radələrində güclü tufan nəticəsində "Günəşli" yatağındakı 10 saylı dərin dəniz özülündə yüksək atmosfer təzyiqi ilə işləyən sualtı qaz xəttinin dayaq borusu qırılmış və yanğın baş vermişdi. Qəza zamanı 32 nəfər təxliyə olunarkən 1 nəfərin meyiti tapılmışdı. 30 neftçi isə itkin düşmüşdü. İtkin düşən neftçilərin 6-nın meyiti hadisədən 3 gün sonra tapılmışdı. Sonuncu dəfə isə dekabrın 27-də itkin düşən neftçilərdən İman Qasımovun meyiti Türkmənistan sahillərində tapılmışdı.

Hazırda "Günəşli" yatağında baş verən qəzadan sonra itkin düşən neftçilərin sayı 20 nəfərdir. Daha 3 neftçi isə "Neft Daşları"nda baş verən qəza zamanı itkin düşüb. Onların da axtarışı ötəni il dekabrın 4-dən davam edir.

Onu da əlavə edək ki, hazırda qəzadan sonra "Günəşli" yatağında baş verən yanğın davam edir. Yanğının söndürülməsi ilə 2 gəmi məşğuldur. ABŞ-dan dəvət olunan mütəxəssislərlə birgə yanğının söndürülməsi istiqamətində işlər görülür.

Musavat.com-a daxil olan digər bir məlumatda isə bildirilir ki, neftçilərin axtarışı dekabr ayının sonunda dayandırılıb. Dekabrın 4-dən başlayan axtarışların nəticəsi yalnız dekabrın 7-də öz nəticəsini vermişdi və 6 neftçinin meyiti tapılmışdı. Dekabrın sonunda isə neftçilərin axtarışı dayandırılıb. Sonuncu tapılan neftçilər isə Türkmənistan sahillərində qonşu ölkənin dənizçiləri tərəfindən tapılıb. FHN və SOCAR isə axtarışların dayandırılması ilə bağlı məlumatı təkzib edir.

❑ İlkin MURADOV




# Səhiyyə naziri: "2015-də hər 100 min diri doğulan uşağa 13-14 ana ölümü qeydə alınıb"

**"Ana ölümü ilə bağlı son illərdə stabilləşməyə nail olunub". APA-nın "Tibb" qəzetinə istinadən verdiyi xəbərə görə, bunu səhiyyə naziri Oqtay Şirəliyev 2015-ci ilin yekunlarına həsr olunmuş kollegiya iclasında çıxışı zamanı deyib. O bildirib ki, 10 il əvvəl hətta reallığı əks etdirməyən illik göstəricilər ən azı 30-40 olurdu:**

"Təxminən 170 min uşağın doğulduğu son illərdə isə ana ölümünün göstəricisi 13-14 arasındadır. 2015-ci ildə hər 100 min diri doğulan uşağa 13,8 ana ölümü qeydə alınıb. Əlbəttə ki, bu göstəricilər də bizi qane etmir. Artıq kəmiyyəti keyfiyyət əvəz etməlidir. Bunun üçün Doğuşayardım Komissiyası tərəfindən də çox böyük işlər görülür. Eyni zamanda komissiya ağır hamiləliklərlə bağlı məsələlərə də nəzarət edəcək".

# Azərbaycanda uşaq qidaları ilə bağlı yeni standartlar



**Azərbaycanda uşaq qida məhsullarının istehsalı ilə bağlı yeni standartlar müəyyənləşdirilib. «Trend»in məlumatına görə, yeni hazırlanan "Qida məhsulları. İstehlakçı üçün məlumat" dövlət standartına əsasən, bir yaşadək körpənin qidası üçün nəzərdə tutulan süd məhsulları və ana südü əvəzedicilərinin adında "Ana südünə yaxın" ifadəsindən istifadə etməyə icazə verilmir.**

İstehsalçı əsas inqrediyentlərin heyvan və ya bitki mənşəli olması, kimyəvi tərkibi haqqında məlumat verməlidir. Bununla yanaşı, məhsulun üzərində ana südünün üstünlüyü qeyd olunmalı, "ana südünə oxşar" və ya "ana südünün əvəzedicisi" ifadəsindən istifadə edilməməli, yalnız həkim məsləhəti ilə istifadə edilə bilməsi haqqında məlumat olmalıdır.

Ana südü əvəzedicilərinin istehlak tarasında, ana südünün üstünlükləri və həkim tərəfindən qidalanma sxeminin təyin edilməsinin vacibliyi haqqında məlumat göstərilir.

Həmçinin istehlak tarasının üzərində uşaq şəklinin təsvir edilməsinə icazə verilmir. Körpələrin əlavə qidalanması üçün məhsulun istehlak tarasına qidalanmanın hansı yaşdan başlanması haqqında tövsiyə verilməlidir.

Uşaq qidası üçün nəzərdə tutulmuş konserv bankalarının üzərinə konservlərin istehsal tarixi (gün, ay, il) və yararlılıq müddəti göstərilməlidir.

Dövlət standartında müəyyən edilən tələblərin beynəlxalq standartlara, norma, qayda və tövsiyələrə və digər dövlətlərin müvafiq mütərəqqi milli standartlarına, elm, texnika və texnologiyanın müasir nailiyyətlərinə əsaslanmasını müəyyən etmək üçün standartın ilkin yoxlama müddəti 2020-ci il, dövrü yoxlama müddəti 5 ildir.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.40 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:




# Telekanallarda ixtisarlar başlayıb?

## ATV-nin Xəbərlər Departamentinin baş redaktoru:

### "Mən də ixtisarlarla bağlı xəbərləri mətbuatda oxudum"

**Telekanallarda kütləvi ixtisarlar olması haqda ölkə.az saytı xəbər yayıb. Məlumata görə, ATV, ANS, «Lider» kimi telekanalların bir çox əməkdaşlarının işinə son qoyulub. ANS-dən uzaqlaşdırılanlar arasında tanınmış şoumen Kamran Həsənli, prodüser Afət Rahilqızı da var. Şoumen Kamran Həsənli telekanaldan uzaqlaşdığını təsdiq edib. O bildirib ki, ANS-də maliyyə çətinlikləri yarandığı üçün aparıcılıq etdiyi veriliş bağlanıb.**

ATV-nin isə 50 əməkdaşının işdən çıxarıldığı, "Lider" televiziyasında da artıq ixtisarların başladığı qeyd edilib.

Musavat.com adıçəkilən telekanallarla əlaqə saxlayıb və yayılan məlumatların nə dərəcə doğru olub-olmadığını öyrənib.

ANS şirkətlər qrupunun mətbuat müşaviri Mayıs Məmmədov bildirib ki, telekanalda ixtisarlar olması xəbəri əsassızdır:

"Kamran Həsənli bir aydır ki, kanaldan gedib. O, öz xoşu ilə dekabrdan əvvəl işdən ayrılıb. İxtisarlar olması xəbəri yalandır, digər əməkdaşlar işinə davam edir".

**ATV-nin Xəbərlər Departamentinin baş redaktoru Vaqif Aydınoğlu qeyd edib ki, telekanalda ixtisarlar olması xəbəri yalandır:**

"Mən də ixtisarlarla bağlı xəbərləri mətbuatda oxudum. Təəssüf edirəm ki, belə məlumat yayılıb. Bu cür xəbərlər əsassızdır. Bütün işçilər yerindədir. İxtisarlar yoxdur".

**"Lider" telekanalının icraçı prodüseri Vüsalə Babayeva da telekanalda ixtisar olması xəbərlərini təkzib edib:** "Bizim telekanalda heç bir dəyişiklik yoxdur. İxtisar xəbərləri doğru deyil".

❑ Könül İBRAHİM

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Manatın devalvasiyası çap mediasının büdcəsinə də mənfi təsirini göstərdi. Maliyyə durumu onsuz da ürəkaçan olmayan qəzetlərə növbəti zərbəni də devalvasiya vurdu. Qəzetlərin manatla olan gəlirləri dəyər itirdiyi kimi, mətbəə xərcləri də artdı. Bəs görəsən, böhranla birlikdə daxil olduğumuz yeni ildə qəzetlər vəziyyətdən necə çıxmağı düşünür? Baş redaktorların hansı antiböhran planları var? Qəzetlərin qiymətinin artması gündəmdədirmi?**

# Qəzetlər çıxış yolu axtarır: baş redaktorlar nə düşünür?



**Ələsgər Süleymanov:** "Çalışacağıq ki, qəzetimizi və kollektivimizi qoruyaq"



**Aydın Quliyev:** "Ən ciddi düşüncəmiz yeni şəraitdə qəzeti necə yaşatmaqla bağlıdır"



**Rəşad Məcid:** "Biz qəzetin fəaliyyətini əvvəlki kimi davam etdirəcəyik"



**Aynur Camal:** "Reklam bazarında əlaqələri sıxlaşdırmalıyıq"

"Yeni Müsavat" bu suallarla qəzet redaktorlarına müraciət edib.

**"Yeni Müsavat" qəzetinin baş direktoru Ələsgər Süleymanov isə qəzetlərin bu böhran vəziyyətindən çıxması üçün hökumətə təkliflər verdiklərini və buna müsbət cavab veriləcəyinə ümid etdiyini vurğuladı:** "Vəziyyəti dəyərləndirəcəyik və çalışacağıq ki, itkilərimiz çox olmasın, qəzetimizi və kollektivimizi qoruyaq. Amma bu nəyin bahasına olacaq və necə başa gələcək, hələ ki bilmirik. Ümid edirik ki, hökumət də devalvasiyadan sonra qiymətlərin qalxmaması üçün hansısa tədbirlər görəcək ki, mətbuat varlığını qoruyub saxlaya bilsin. Biz bayramdan öncə müəyyən təkliflərlə çıxış etmişdik və bunlardan da biri qəzetin yayım işlərini genişləndirməklə bağlı idi. Bizim təklifimiz o idi ki, metroda yayıma icazə verilsin. Eyni zamanda heç bir mətbuat orqanına fərq qoyulmadan reklam bazarı ədalətli şəkildə bölünsün. Güman edirik ki, bu addımlar atılsa, qəzetlər çətin də olsa öz varlığını qoruyub saxlaya bilər".

**Ə. Süleymanov qeyd etdi ki, hökumətə müraciətdə KİVDF tərəfindən qəzetlərə verilən maliyyə dəstəyinin artırılması da var:** "Biz belə bir təklif də vermişik. Ancaq ilin ilk 6 ayı üçün veriləcək vəsait artıq ayrılıb və mən gözləmirəm ki, bunda dəyişiklik olsun. Ancaq hər halda, artım olsa biz bunu yüksək qiymətləndirərik və bu mətbuata böyük dəstək olar. Biz yanvar ayının birindən etibarən qiyməti də 50 qəpiyə qaldırmışıq. Lakin bu, son devalvasiyadan əvvəlki qərardır. Devalvasiyadan sonra artıq qəzetin 50 qəpik olmasının da elə ciddi bir əhəmiyyəti olmadı. Ancaq qiyməti bundan çox artırmağı düşünmürük. Çünki bu, oxucuların da alıcılıq qabiliyyətinə bağlı olan məsələdir. Başqa addımları isə digər mətbuat orqanları ilə məsləhətləşmədən sonra gündəmə gətirə bilərik".

**"Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev bildirdi ki, qəzetin maliyyə problemləri onu da ciddi şəkildə narahat edir və devalvasiya bu problemin daha da ağırlaşmasına səbəb olub:** " Hazırda bizim ən ciddi düşüncələrimizdən biri də yeni şəraitdə qəzeti necə yaşatmaqla bağlıdır. Nəşriyyatlar, mətbəələr qiymətləri qaldırıblar. Bundan əlavə, maliyyə mənbələrinin yaradılması imkanları məhduddur. Mənə elə gəlir ki, bütün populyar qəzetlər üçün bu belədir. Əlavə maliyyə mənbələri yaratmaq çətindir. Ona görə də düşünürəm ki, indiki şəraitdə biz ancaq bəzi ikinci dərəcəli xərcləri məhdudlaşdırmaqla jurnalistlərin əmək haqlarında müəyyən qədər artım edə bilərik. Hələlik bu barədə fikirləşirəm. Bundan əlavə, KİVDF xətti ilə aldığımız vəsaitlərin artırılmasını da arzu edirik. Əvvəl bu vəsaitlər bizə daha çox dəstək olurdu. İndiki şəraitdə isə həmin pul nominal olaraq dəyərini itirib. Mənə elə gəlir ki, ölkə başçısı bu barədə qərar verəcək. Hər halda, biz belə bir qərarı gözləyirik. Ümid edirik ki, fondun və ya Prezident Administrasiyasının müvafiq strukturlarının təşəbbüsü ilə cənab prezident növbəti maliyyə ilində bu məsələ ilə bağlı bir qərar verəcək".

**Qəzetin qiymətinin artırılması məsələsinə gəlincə, A. Quliyev bildirdi ki, bu riskli bir qərardır:** "Qəzetin çap variantının yayılması onsuz da zəifdir və belə bir halda bu addımın atılması daha pis vəziyyət yarada bilər".

**"525-ci qəzet"ın baş redaktoru Rəşad Məcid isə bu duruma optimist yanaşaraq qəzetlərin bu böhrandan da çıxacağına inandığını bildirdi:** "Biz qəzetin fəaliyyətini əvvəlki kimi davam etdirəcəyik. Bu elə bir prosesdir ki, atalar sözündə deyildiyi kimi, xalqla gələn bəla toy-bayramdır. Bizim nəsil 90-cı illəri görüb, müharibəni görüb, gecə yatıb səhər dururduq ki, dollar 50 faiz bahalaşıb. Biz bunları yaşamışıq. İndi də bu proseslərə sakit baxıram və elə bilirəm ki, qəzetlər də, xalqımız da bu çətinlikləri yola verəcək. Düzdür, biz müəyyən çətinliklərlə üzləşə bilərik. Nəşriyyatlar çap xərclərini artırmağa məcburdur. Mən düşünürəm ki, bu situasiyadan çıxmaq üçün hamı bir-birini başa düşməlidir, bir-birinə həssaslıqla yanaşmalıdır. Bununla situasiya qaydasına düşəcək".

**Qəzetin qiymətini artırmağa gəlincə, Rəşad Məcid bunun əleyhinə olduğunu vurğuladı:** "Ona görə ki, Azərbaycanda qəzetin qiyməti onun həcminə görə onsuz da bahadır, mən bunu həmişə demişəm. Qonşu ölkələrlə müqayisədə Azərbaycanda qəzet çox bahadır. Bu da ölkədə reklam bazarının qıtlığı ilə bağlıdır ki, Azərbaycanda qəzetlər əsasən satışdan gəlir götürürlər. İndi də onlayn medianın meydan suladığı dövrdə çap mediasının, qəzetlərin qiymətinin artırılması çıxış yolu deyil. Hesab edirəm ki, bu, cüzi bir xeyir verə bilər. Ona görə də qəzetin qiymətini əvvəlki kimi saxlayacağam. Güman edirəm ki, reklam bazarında hər hansı tərpəniş olar. Hər halda, bu duruma işçilər də, digər əlaqəli qurumlar da həssaslıqla yanaşacaqlar".

**"Gündəlik Teleqraf" qəzetinin baş redaktoru Aynur Camal da açıqlamasında reklam bazarından gələn vəsaitlərə ümid etdiyini qeyd etdi:** "Düşünürəm ki, medianın vəziyyətdən çıxması üçün biz reklam bazarında əlaqələri sıxlaşdırmalıyıq. Reklamdan lazım olduğu qədər vəsait əldə edə bilməsək, təbii ki, bizim də maliyyə problemlərimiz olacaq. Yəni bütövlükdə ölkədə iqtisadi durum necədirsə, o, mediaya da təsirini göstərir. Lakin mən qətiyyən ümidsiz deyiləm, optimistəm və düşünürəm ki, mütləq bu durumdan çıxış yolları tapılacaq. Hesab edirəm ki, Yeni ildə dövlətdən ayrılan vəsaitin məbləğinə də yenidən baxılacaq və mətbuatın manatın ucuzlaşmasından itirdikləri nəzərə alınacaq. Mən ümumiyyətlə qəzetin qiymətinin artırılmasını çıxış yolu hesab etmirəm".

**Aynur Camal da qəzetin bahalaşması fikrini etirazla qarşıladı:** "Əgər insanların alıcılıq qabiliyyəti aşağı düşübsə, o zaman qiyməti qaldırmaqla biz alıcılarımızın sayını azaltmış olarıq. Əksinə, biz qiyməti ucuzlaşdırmalıyıq ki, insanların qəzet alıb oxumaq imkanı olsun. Qəzet çörək deyil və insanlar iqtisadi böhran zamanı ilk növbədə ən vacib olanları alırlar. Qəzet isə onsuz da bütün dünyada populyarlığını itirir, insanlar informasiyanı internetdən alırlar. Yəni qəzet həyati əhəmiyyətə malik deyil və indiki halda qiymətləri qaldırsaq, sadəcə olaraq, oxucularımızı itirmiş olacağıq".

❑ **Nərgiz LİFTİYEVA**

# Daşkəsəndə qarlı-çovğunlu Yeni il şənliyi







**Dekabrın 31-də Daşkəsən rayonuna güclü qar yağıb. Belə bir havada rayonda Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni il bayramı keçirilib. Bu haqda musavat.com-a Daşkəsən RİH-dən məlumat daxil olub.**

Məlumatda bildirilir ki, Daşkəsən şəhərinin mərkəzində Heydər Əliyev Mərkəzinin qarşısındakı meydanda böyük küknar ağacı quraşdırılıb və orada tədbir olub. Tədbiri giriş sözü ilə rayon İH başçısı Əhəd Abıyev açıb. Sonra tədbir "Yeni həyat" sarayında bayram süfrəsi arxasında davam etdirilib.

Ə.Abıyev çıxışına bu sözlərlə başlayıb:

"Əziz daşkəsənlilər! Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev başda olmaqla, sizin hər birinizi 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni il bayramı münasibətilə ürəkdən təbrik edir, sizlərə möhkəm cansağlığı, ailə xoşbəxtliyi, bol ruzi-bərəkət diləyir, hər birinizə ən xoş arzularımı çatdırıram".

Ə.Abıyev 2015-ci ildə rayonda görülən işlər haqda da danışıb. "Hazırda uzun müddətdən bəri problemli məsələ olaraq qalan Daşkəsən şəhərinin su-kanalizasiya sisteminin yüksək səviyyədə yenidən qurulması üzrə işlər uğurla davam etdirilir. Bu layihənin həyata keçirilməsi Daşkəsən rayonunun sakinlərinin fasiləsiz, ekoloji cəhətdən təmiz su ilə təmin olunmasına imkan verəcəkdir" - deyə o bildirib.

Tədbirdə YAP Daşkəsən rayon təşkilatının sədri Meydanəli Yolçuyev də çıxış edib.

YENİ MÜSAVAT
N 1 (6322) 5 yanvar 2016

# "Növbəti altı ayda devalvasiya olmayacaq, amma..."

## Əkrəm Həsənov: "Dövriyyədə qanunsuz milli valyuta varsa, problem ola bilər..."

**Milli valyuta olan manatın devalvasiya ehtimalları ilə bağlı narahatlıqlar var. Bir çox ekspertlər üçüncü devalvasiyanın olacağı barədə həyəcanlı proqnozlar verirlər. Həmçinin bildirilir ki, ikinci devalvasiya ərəfəsində hökumətdə devalvasiyanın ölçüsü barədə müzakirələr ciddi məqamlardan xəbər verir. Bəzi hökumət üzvlərinin yumşaq devalvasiya, digərlərinin isə kəskin devalvasiya istəməsi manatla bağlı gərginliyin azalmamasının göstəricisi kimi təqdim edilir.**



**Ekspert Əkrəm Həsənov** isə məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, yaxın bir neçə ayda ölkədə devalvasiya təhlükəsi yoxdur: "Azərbaycanda dövriyyədə olan, elan olunan milli valyuta əgər doğrudan da həmin həcmdə varsa, yaxın vaxtlarda devalvasiya gözləmirəm. Çünki dövriyyədə milli valyuta azalıb. Onun ucuzlaşması üçün gərək əhali çoxlu dollar alsın. Dollar almaq üçün də əhalidə milli valyuta kifayət qədər olmalıdır. Amma eyni yanaşmalar ilin axırında da var idi. Buna görə bəzi mütəxəssislər ilin sonunda belə bir fikir irəli sürmüşdürlər ki, bəlkə də dövriyyədə milli valyuta elan olunandan çoxdur. Yəni dövriyyədə qanunsuz milli valyuta var. Əgər belə bir şey varsa, o zaman devalvasiya gözləniləndir. Hələ 2014-cü ildən Avstriyada buna işarə verən proses gedirdi. Söhbət Avstriya Mərkəzi Bankının Suriyanın və Azərbaycanın həmin ölkədə çap etdiyi milli valyutadan gedir. İttihamlar var idi ki, Azərbaycan Mərkəzi Bankına müəyyən atkatlar verilmişdi pulun çox çap olunmasına görə. Əgər bu, doğrudan da belədirsə, Mərkəzi Bank bəyan etdiyindən çox pul çap edib dövriyyəyə buraxıb. Buna görə də dövriyyədə milli valyuta çox olduğu üçün onun əvəzinə dollar alınır. Yəni belədirsə, ola bilər ki, növbəti devalvasiya da olsun. Amma mətbuatda bu cür fikirlər də var ki, ikinci devalvasiyada Mərkəzi Bankın təklifi bir dolların 1,2 manata qaldırılması olub. Yalnız maliyyə naziri təklif edib ki, daha çox, 1,55 olsun. Mən bilmirəm bu, nə dərəcədə doğrudur. Əslində başa düşülmür ki, maliyyə naziri niyə belə deyib. Bəlkə hər dəfə devalvasiyaya getməmək üçün bu cür təklif verib, birdəfəlik yüksək devalvasiya təklifini verib. Məncə, növbəti 3-4 ayda devalvasiya olmayacaq. Amma ziddiyyətli məqamlar var. Bildirilir ki, Elman Rüstəmov daha az devalvasiyanı təklif edib. Yəqin onun banklar qarşısında qeyri-rəsmi öhdəlikləri çoxdur. Banklara müəyyən vədlər, sözlər verib ki, devalvasiya böyük olmayacaq. Son devalvasiyanın böyük olduğunu nəzərə alaraq, demək olar ki, növbəti altı ayda devalvasiya olmayacaq".

**Ekspert Rövşən Ağayev isə qeyd edib ki, son il yarımda Mərkəz Bank öz valyuta ehtiyatlarının təxminən 70 faizini və ya 10,1 milyard dollarını itirib:** "Mərkəzi Bank 2016-cı il üzrə pul-kredit siyasətinin istiqamətlərinə dair açıqladığı bəyanatda qeyd edir ki, valyuta ehtiyatları 5 milyard dollara enib. Bu, o deməkdir ki, dekabr ayında təxminən 1,3 milyard dollar əriyib. Bir ay öncə ehtiyatlar təqribən 6,3 milyard dollar idi".

**Qeyd edək ki, bəzi xarici ekspertlər manatın növbəti devalvasiya ehtimallarından danışırlar. "Saxo Bank"ın Strategiyalar şöbəsinin müdiri Con Hardi «Trend»ə bildirib ki, 2016-cı ildə Federal Ehtiyat Sisteminin (FES) faiz dərəcələrini kəskin artırması məzənnənin tənzimlənməsi ilə əlaqədar FES-in siyasətinə istiqamətlənmiş Azərbaycan üçün qəbuledilməzdir. Onun sözlərinə görə, FES-in faiz dərəcələrini artırmasının Azərbaycan manatına təsiri ilk növbədə faiz dərəcələrinin artım tempindən və neftin qiymətlərindən asılı olacaq:** "Manat artıq hazırda növbəti devalvasiya təhlükəsi altındadır, çünki ötən devalvasiyadan sonra neftin qiymətləri xeyli azalıb. Bu təzyiq neftin qiymətləri artsa, zəifləyə bilər, lakin 2016-cı ildə faiz dərəcələrinin artımı çox güman ki, Azərbaycan üçün qəbuledilməz olacaq".

C.Hardi qeyd edib ki, Azərbaycan 2016-cı ildə milli valyutanın daha böyük devalvasiyasına hazırlaşmalıdır: "Yəqin ki, bu devalvasiya 2014-cü ilin sonu 2015-ci ilin əvvəlindəki miqyasda olmayacaq, çünki neftin qiymətləri 2016-cı ilin əvvəlində özünün minimum səviyyəsinədək düşəcək". Qeyd edək ki, dekabrın 16-da ABŞ Federal Ehtiyat Sistemi (FRS) dollarını baza faiz dərəcəsini 0,25-0,5 faizə qaldırıb.

"Bloomberg" ekspertləri isə 2016-cı ildə ABŞ dollarının kursunun sabiq prezidentlər- Bill Klinton və Ronald Reyqan dönəmindən sonra ilk dəfə rekord həddə qalxacağını bildiriblər. Ekspertlərin fikrincə, dolların daha da möhkəmlənməsi ötən ilin dekabrında Federal Ehtiyat Sistemi tərəfindən uçot dərəcələrinin artırılması haqda qəbul olunan qərarla və dərəcələrin daha da artırılması ilə bağlı olacaq. Onların hesablamalarına əsasən, ilin sonuna ABŞ dolları ilə yanaşı, Britaniya funtu, Kanada dolları və Norveç kronunun da məzənnəsi qalxacaq. Avro 3 faiz, Çin yuanı 3,5 faiz ucuzlaşacaq.

Həmçinin "Bloomberg" Agentliyi açıqlayıb ki, Azərbaycan manatı, Qazaxıstan tengəsi və Zambiya kvaçası 2015-ci ildəki devalvasiya üzrə lider olublar. Siyahıda dördüncü yeri Belarus rublu, beşinci yeri isə Argentina pesosu tutub. Siyahıda yeddinci yerdə Ukrayna qrivnası göstərilib.

❑ Röya RƏFİYEVA

# Neftin gələcəyi barədə bədbin proqnozlar

**Ekspert Vüqar Bayramov deyir ki, neftin qiymətinin aşağı düşməsinin iqtisadi və siyasi səbəbləri var: "Dünya neft içərisində üzür. Gündəlik istehlak 94 milyon bareldən az olan dünya bazarında təklif 97 milyon bareldən çoxdur. Hər gün dünya bazarına 3 milyon barel artıq neft çıxarılır. Bu isə qiymətin aşağı düşməsinin əsas iqtisadi səbəblərindədir. Doğrudur, hasilatın çox olmasının siyasi səbəbləri də var. Amma reallıq bundan ibarətdir ki, neft hasilatı və təklifi yüksək olaraq qalmaqdadır.**



Gündəlik 9,3 milyon barel xam neft hasil edən ABŞ-ın Avropa bazarına çıxması neftin qiymətinə iqtisadi təsirdən daha çox psixoloji təzyiq göstərir. Birləşmiş Ştatların gündə 7 milyon barel neft idxal etməsinə baxmayaraq, okeanın o tayından köhnə qitəyə neft ixracı həyata keçirilməkdədir. ABŞ eyni zamanda idxalın strukturunun da şaxələndirilməsinə nail ola bilib. 2008-ci ildən sonra gündəlik idxalını 7.8 milyon barel azaldan Birləşmiş Ştatların neft importunda heç bir ölkə dominant deyil. ABŞ idxalında 12 faizlə ən yüksək paya malik olan Kanadanı 11 faizlə Səudiyyə Ərəbistanı və digər ölkələr izləyir. Deməli, idxalda praktik olaraq heç bir ölkədən asılı olmayan Birləşmiş Ştatlar Avropa bazarına çıxmaqla qiyməti diqtə edən gücdür. OPEK və xüsusən də Səudiyyə Ərəbistanı ABŞ bazarını itirməkdən ehtiyatlanaraq okeanın o tayından gələn musiqi ilə "oynayır". Bu baxımdan neftin qiymətlərinin kəskin azalmasında və dünya bazarında "qara qızıl" bolluğunun yanaşmasına baxmayaraq, ötən ay keçirdiyi yığıncaqda OPEK hasilatın azaldılması deyil, artırılması haqda qərar qəbul etdi. Bu da 2016-cı ildə neftin qiymətinin yüksələcəyinə ümidli olan ölkələri və şirkətləri xeyli bədbinləşdirdi. ABŞ və İranın Avropa bazarına çıxışı neftin dünya bazar qiymətinin yaxın müddətdə artmayacağından xəbər verməklə yeni və daha kəskin qiymət azalmalarının olacağını da istisna etmir".

**Ekspertin sözlərinə görə, OPEK-in iki aparıcı ölkəsi arasındakı gərginliyə baxmayaraq, neft bazarındakı təklif təzyiqi qiymətlərin ciddi artmasına imkan verməyəcək:** "Qiymətlərin stabilləşməsi yalnız Səudiyyə Ərəbistanının dünya bazarına çıxış imkanları məhdudlaşdığı halda mümkündür. Neftin dünya bazar qiymətinin azalması və aşağı səviyyədə qalması Azərbaycan iqtisadiyyatına mənfi təsir göstərir. Neftin dünya bazar qiyməti yüksək olan dövrlərdə ixracatının 95 faizini neft və neft məhsulları təşkil edən ölkəmizin gəlirləri son 1 ildə 3 dəfə azalıb".

**Ekspert Rövşən Ağayev isə qeyd edib ki, neft bazarının perspektivi ilə bağlı çoxsaylı proqnozlar var:** "Qiymətlərin uzun müddət ucuz olacağını iddia edən mərkəzlər də var, yaxın zamanlarda bahalaşmanın qaçılmaz olduğunu dartışanlar da.

Bazarda qiymətlərin kəskin ucuzlaşmasına səbəbləri ilə də bağlı çoxsaylı mübahisələr var-siyasi faktorların həlledici olduğunu da deyənlər var, iqtisadi amillərin müəyyənedici xarakter daşıdığını söyləyənlər də. Bu müzakirələrdə səslənən arqumentlərə toxunmadan bir tendensiyanı diqqətinizə çatdırmaq istəyirəm. Bəlkə də müəyyən mənada bunu həm də neft bazarının qanunauyğunluğu da adlandırmaq olar. Rəqəmlər göstərir ki, dünya neft bazarında aşağı qiymətlərin də, yüksək qiymətlərin də davametmə müddəti 10 ildən az olmayıb- təbii ki, çox kiçik istisnalarla. Son 55 il - 1960-2015-ci illər üzrə məlumatlar bunu təsdiqləyir. Aşağı qiymətlər dövrü 10 ildən çox davam edib. 1960-1970-ci illərdə Brent markalı neftin bir barelinin orta illik qiyməti 2-2,1 dollar intervalında dəyişib- aşağı qiymətlərin 10 ildən çox davam etdiyi bu müddətdə neftin qiyməti demək olar dəyişməz qalıb. Daha sonra yüksək qiymətlər dövrü 15 il davam edib. 1971-1985-ci illərdə 2,6-35,5 dollar intervalında dəyişib və artım 14 dəfə təşkil edib. Yalnız 1975-ci ildə orta illik qiymət 0,6 dollar azalaraq 10,6 dollar təşkil edib. Amma 1976-cı ildən yenidən qiymətlər yüksəlib və 1980-81-ci illərdə özünün ən yüksək həddinə çatıb: 34-35 dollar intervalında dəyişib. 1982-1985-ci illərdə bir qədər azalsa da, yenə də 27-31.5 dollar arasında olub. Daha sonra aşağı qiymətlər dövrü 14 il davam edib. 1986-1999-cu illərdə 13.8-20 dollar intervalında olub. Burda yalnız 1990-cı il istisnadır. Həmin il üzrə Brent markalı neftin bir barelinin orta illik qiyməti əvvəlki ilə nisbətən 30 faiz, yəni 5 dollar yüksələrək 23 dollara çatmışdı. Amma sonradan 1991-97-ci illər üzrə orta illik qiymət 15-20 dollar intervalında hərəkət etmiş, 1998-ci ildə yenidən 12 dollara enmiş, 1999-cu ildə 18 dollara yüksəlməklə sonrakı 10 illik üçün yuxarı qiymətlərə başlanğıc olmuşdu. Yüksək qiymətlər dövrü isə 15 ilə qədər davam edib. 2000-2014-cü illərdə Brent markalı neftin bir barelinin orta illik qiyməti 28-112 dollar intervalında dəyişib. Bu müddətdə yalnız 2001 və 2009-cu illər istisnadır. 2012-2014-ci illərdə artım olmasa da, neftin orta illik yüksək qiyməti qalmış və bu qiymət 99-108 dollar intervalında hərəkət etmişdi. 2015-ci ildə neftin qiyməti kəskin azalıb və Brent markalı neftin bir barelinin orta illik qiyməti təxminən 50 dollar ətrafında olub. 2016-cı il də ucuz qiymətlərlə başlayıb. Əgər əvvəlki 4 mərhələnin qanunauyğunluğu pozulmasa, deməli, ən azından 2024-2025-ci ilədək aşağı qiymətlər qalmalıdır. Bu, amillər üzrə təhlil deyil. Sadəcə, son 50 ildə müşahidə olunan qanunauyğunluğun təsviridir".

**Yeri gəlmişkən, dünyanın qabaqcıl investisiya banklarından olan "Goldman Sachs"ın əmtəə üzrə direktoru Jeffrey Kurrie 2016-cı ildə neftin qiymətinin 20 dollara qədər ucuzlaşması riskinin olduğu qənaətindədir. J.Kurrie neft bazarında təklif çoxluğunun 2016-cı ildə də davam edəcəyini deyib:** "Əgər belə davam edərsə, neftin qiymətinin 20 dollaradək ucuzlaşması riski var və bu da istehsal sahələrinin bağlanmasına gətirib çıxaracaq". Bəzi analitiklər isə neftin barel qiymətinin hətta 15 dollaradək ucuzlaşacağını düşünürlər.

❑ RÖYA

YENİ MÜSAVAT
N 1 (6322) 5 yanvar 2016

# Kərəm Mustafayevin ətrafında gizli həbs dalğası - şok gəlişmə

## Ordu komandanının "kassir"i tutulub, general-leytenantın yaxın adamı işdən çıxarılıb; həyat yoldaşının deputat fəaliyyəti məhdudlaşdırılıb!

**Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-leytenant Kərəm Mustafayevin ətrafında həbslər başlayıb, müəmmalı proses gedir. Ötən ilin son günlərində K.Mustafayevin saxlanılması xəbərinin ardından onun qardaşı Nemət Mustafayevin də həbsi xəbəri yayıldı. Müdafiə Nazirliyinin mətbuat xidmətindən K.Mustafayevin həbs xəbərinə reaksiya verildi, onun həbs olunmadığı açıqlandı. Lakin rəsmi açıqlamada generalın qardaşının həbs xəbərinə münasibət bildirilmədi.**



Kərəm Mustafayev

Bu arada Kərəm Mustafayevin həyat yoldaşı İlhamə Mustafayevanın da problemlərlə üz-üzə qaldığı xəbəri yayılıb. Bildirilir ki, İ.Mustafayeva 1 noyabr parlament seçkilərində 45 saylı Aza Seçki Dairəsindən Naxçıvan MR Ali Məclisinə deputat seçilib. Amma İ.Mustafayeva deputat kimi çox az fəaliyyətdə ola bilib. K.Mustafayevin ətrafında gizli həbslər həyata keçiriləndən sonra İ.Mustafayevanın fəaliyyəti məhdudlaşdırılıb. Onun Ali Məclisə buraxılmadığı da gələn məlumatlar sırasındadır. İ.Mustafayeva deputat seçilənə qədər Naxçıvan Tibb Kollecinin direktoru vəzifəsini daşıyıb. Onu postundan ötən il dekabrın əvvəllərində Vasif Talıbovun verdiyi sərəncamla uzaqlaşdırıblar. Artıq Tibb Kollecində yoxlamaların aparıldığı xəbəri də var.

Bir neçə gün əvvəl isə Kərəm Mustafayevin maliyyə xidməti rəisi polkovnik Elşad Rzayev tutulub. E.Rzayev K.Mustafayevin ən inanılmış adamlarından biri olub, məlumata görə, uzun illər maliyyə xidmətinə rəhbərlik edib. Təsadüfi deyil ki, keçmiş gizir olan E.Rzayev polkovnik rütbəsinə qədər yüksələ bilib. Azpolitika.info yazır ki, polkovnik E.Rzayevin həbsindən sonra Əlahiddə Ümumqoşun Ordusunun daha bir yüksək rütbəli zabiti Əli Əsədov vəzifəsindən və ordudan uzaqlaşdırılıb. Ə.Əsədov da Kərəm Mustafayevə yaxın zabitlərdəndir. Rəsmi vəzifəsi poliqon rəisi olsa da, məlumata görə, o, Əlahiddə Ordunun tikinti-quraşdırma işlərinə nəzarət edən şəxslərdən biri olub.

Naxçıvan ordusunda cəzalandırmaların nə ilə bağlı olduğu haqda dəqiq məlumat olmasa da, böyük ehtimalla bunların Kərəm Mustafayevin qardaşı, uzun illərdir MR-də hərbi üçün aparılan təmir-tikinti, quraşdırma işlərinə rəhbərlik edən Nemət Mustafayevin saxlanılması ilə bağlı son günlər yayılan xəbərlərlə əlaqəsi var. Nemət Mustafayevin böyük həcmli maliyyə mənimsəmələrinə görə saxlanıldığı bildirilsə də, bu barədə heç bir rəsmi açıqlama və ya təkzib verilməyib. Lakin Əlahiddə Ümumqoşun Ordusunun maliyyə xidməti rəisinin həbsi bu məlumatların heç də əsassız olmadığının sübutu sayıla bilər. Sayt yazır ki, Nemət Mustafayev "şəxsi məsələyə görə" saxlanılıb, lakin bir neçə gündən sonra sərbəst buraxılıb.

"Yeni Müsavat" əməkdaşını bilgiləndirən mənbə deyib ki, Naxçıvandakı hərbi hissələrdə bütün tikinti işlərinə uzun illər K.Mustafayevin qardaşı nəzarət edib. Mustafayevlərin problemləri N.Mustafayevin əndazəni aşan hərəkətlərə yol verməsindən sonra başlayıb. Belə ki, Nemət Mustafayev hərbi hissələrdən birində yüksək rütbəli hərbçilərdən birini təhqir edib. Yaranmış mübahisə zəminində N.Mustafayevə yumruq zərbəsi endirilib. Mübahisə Ali Məclisin sədri Vasif Talıbova çatdırılandan sonra ən ciddi şəkildə yoxlanılması tapşırılıb. N.Mustafayevi vuran hərbçi saxlanılıb. Amma sonradan azad edilib. Həmin zabitin Müdafiə Nazirliyində yüksək post tutan generallardan biri ilə yaxşı münasibətləri olduğu deyilir. Bu qalmaqaldan sonra N.Mustafayevin fəaliyyəti araşdırılmağa başlanılıb. Onun qardaşının tutduğu postdan istifadə edərək bir neçə dəfə bu cür hallara yol verməsi aşkarlanıb. Onun tikintidə yol verdiyi yeyintilər rəsmiləşdirilib.

Yeri gəlmişkən, K.Mustafayevə etimadın azaldığını ehtimal etməyə əsas verən daha bir fakt: dekabrın 30-da MR Ali Məclisinin sədri Vasif Talıbov Şahbuz rayonunun Şada kəndində yerləşən hərbi hissəyə baş çəksə də, K.Mustafayev onu müşayiət etməyib. Hər halda, rəsmi agentliyin yaydığı fotolarda Əlahiddə Ordunun komandanı görünməyib.

**Mövzunu davam etdirəcəyik.**

**❑ E.HÜSEYNOV**

**P.S.** *Yazıda adı keçən hər bir şəxsi dinləməyə, mövqeyini qəzetdə dərc etməyə hazırıq.*

# Rüşvət alması gizli kamera ilə çəkilən nazirlik rəsmisi həbsdən azad edildi

**11 il müddətinə azadlıqdan məhrum edilmiş Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 14 saylı Tibbi Sosial Ekspert Komissiyasının sabiq sədri İmran Məmmədov həbsdən azad olunub. İ.Məmmədov 2013-cü ildə Şabran rayon sakininin Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinə müraciətindən sonra tutulmuşdu. Şikayətçi bildirmişdi ki, İmran Məmmədov ona əlillik dərəcəsinin təyin edilməsi üçün rüşvət tələb edir.**



İdarənin əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu tərəfindən komissiyanın inzibati binasında məhkəmənin müvafiq qərarına əsasən əməliyyat-axtarış fəaliyyətinin gedişində əldə edilmiş materiallarla vətəndaşın müraciətində göstərdiyi xüsusatlar öz təsdiqini tapmışdı. Sabiq sədrin otağına yerləşdirilən gizli kamera ilə onun xidməti otağında Şabran şəhər sakini Mircabbar Hüseynovdan bacısı Yeganə Abdullayevaya ömürlük əlillik dərəcəsinin təyini üçün 1500 manat məbləğində pulu rüşvət kimi alması qeydə alınmışdı. Bundan başqa, İ.Məmmədovun eyni məqsədlə ona müraciət edən M.Hüseynovun digər bacısı Qərənfil Abdullayevadan da 1000 manat məbləğində pulu təkrarən rüşvət kimi alması da gizli kameranın yaddaşına həkk olunmuşdu. Baxış zamanı İ.Məmmədovun xidməti otağından 3 min 600 manat pul, müxtəlif şəxslərin adına olan müayinə işləri və digər sənədlər, yaşadığı evdən isə 31 ədəd bankomat kartı və 15 min 340 manat məbləğində pul aşkar edilərək maddi sübut kimi götürülüb. Cinayət Məcəlləsinin 311.3.2-ci (təkrar rüşvət alma) 312.1-ci (rüşvət vermə) maddələri ilə ittiham edilən İ.Məmmədov 2014-cü ildə məhkəmə qarşısına çıxarılmışdı. Həmin ilin aprelində hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə İ.Məmmədov 11 il müddətinə azadlıqdan məhrum edilib. 2 illik məhkumluq həyatından sonra İ.Məmmədov həbsdən buraxılıb.

**❑ E.HÜSEYNOV**

# Marionetləri idarə edənlərin savaşı



**Xalid KAZIMLI**

**Folklorumuzda bir idiomatik kəlam var, belədir: "Qaçan da Allah deyir, qovan da". Yəni hər iki tərəf öz məqsədinə çatmaq üçün Allaha güvənir; qaçan öz qurtuluşu üçün ona yalvarır, qovan isə qisas almaq üçün ilahi köməyə ehtiyac duyur.**

Bu gün İslam dünyasının üz-üzə qalan iki qüdrətli dövlətinin - İranın və Səudiyyə Ərəbistanının durumu o zərbül-məsəli xatırladır. Tərəflərin ikisi də "Allahu-əkbər" deyir, ikisi də Allaha güvənir.

Hər iki dövlət özünü dini mərkəz sayır və bu, gerçəkdən elədir. Səudiyyə Ərəbistanı bütün dünya müsəlmanlarının baş səcdəgahıdırsa, İranda da dünya şiələrinin sitayiş etdiyi ibadətgahlar var.

Gəl gör ki, bu gün iki dövlətin münasibətləri düşmənçilik səviyyəsindədir. Aranın qarışması, müharibənin başlanması üçün bütün mərhələlər keçilib, qalıb aviasiya bombardmanları və quru qoşunların həmləri.

Əslində İran və Səudiyyə Ərəbistanı heç vaxt can bir qəlbdə dost, müttəfiq olmayıblar. Onların arasında gizli çəkişmə yüz illərlə davam edib. Məkkə hər ikisi üçün müqəddəs ocaq olsa da, məzhəblər arasındakı çəkişmə heç vaxt yumşalmayıb.

Sonradan bu çəkişmənin üzərinə bir də dövlət maraqları əlavə olunub.

Son illərdə hər iki teokratik rejim öz dini baxışlarını daha artıq səylə özlərindən kənara yaymaq, ixrac etmək məqsədi güdürdü və toqquşmalar mütləq olacaqdı.

Həm Səudiyyə Ərəbistanı, həm də İran bir sıra ölkələri öz poliqonlarına çevirmişdilər. İraq, Suriya, Əfqanıstan, Pakistan, Yəmən, Livan bu qəbildəndir.

İllərdir ki, bu ölkələrdə növbə ilə gah şiə məscidini vəhhabi-sələfilər partladır, ya da sünni camesini şiə terrorçular. Hər ikisində müsəlmanlar ölür, qatillər də partladıcını dünyəsini basıb "Allahu əkbər" deyirlər, qurbanlar da can verərkən "Allahu əkbər" deyirlər.

Axırıncı 10 ildə döyüşkən vəhhabiliyin dünyada bu qədər güclənməsi, təşkilatlanması, yeni bir dövlət yaradacaq həddə qədər böyüməsi sırf Səudiyyə Ərəbistanının, Qətərin ayırdığı milyardlarla dollar vəsaitin hesabınadır.

Bunu İran da, ətraf dövlətlər də, uzaqdakı supergüclər də bilirlər.

Ancaq indiyə qədər düşmənçilik açıq şəkil almırdı. Yəməndə isə üsyançı husilərlə səudların dəstəklədiyi sünni çoxluğun arasında düşən vətəndaş müharibəsi tərəflərin himayədarlarını üz-üzə gətirdi.

Artıq qarşı duran fiqurlar marionetlər deyil, birbaşa o marionetləri idarə edənlərdir. Onlar Yaxın Şərqin yenidən bölüşdürülməsi uğrunda savaşa başlayıblar.

Yəni konfliktin kökündə duran məsələ məzhəb ayrılığı olsa da, əsas məsələ dövlət maraqlıdır.

Xristian dünyası eyni mərhələni bir neçə yüz il öncə keçib, öz problemlərini (həm katolik-pravoslav qarşıdurmasını, həm də dövlətlərarası münaqişələri) həll ediblərsə, islam dünyası prosesə hələ indi başlayır.

Yuxarıda adları çəkilən dövlətlər bir ara Azərbaycanı da öz maraqlarının poliqonuna çevirmək əzmində idilər. Yəqin ki, o planlardan hələ də vaz keçilməyib. Sadəcə, hakimiyyətin sərt tədbirləri ölkəmizdə sünni-şiə münaqişəsi yaratmağı düşünənlərin, bir məzhəbə üstünlük qazandırmaq, digərini əzmək istəyənlərin planını pozdu.

Bu xüsusda bir balaca yumşaqlıq edilsəydi, indi biz məzhəb zəminində küçə davalarından tutmuş ta lokal səviyyədi silahlı atışmalara qədər hər cür rəzalətin şahidi olardıq.

Dini dünyagörüş ixracı üzrə ixtisaslaşan dairələrdən maddi, siyasi, ideoloji dəstək alan və ölkədə geniş şəbəkə qurmaq istəyənlərin, növbənöv fitnəkarların ifşası xalqımızı Suriyadan, İraqdan bildiyimiz qanlı bataqlıqlara düşməkdən qoruyur.

Heç kim deməsin ki, yox, Azərbaycan xalqı maarifçidir, tərəqqipərvərdir, dünyəvi dəyərlərə üstünlük verir, bizim əhalini məzhəb savaşına çəkə bilməzdilər.

Xeyr, lap asanlıqla çəkərdilər. Çəkmirdilərmi? Baş verən bir sıra hadisələri xatırlayaq. Gəncədə, Zaqatalata, Sumqayıtda, Bakıda, Bakı kəndlərində nə qədər dini ekstremistlər zərərsizləşdirildi, fitnə yuvaları dağıdıldı. Onlar özbaşına buraxılsaydı, indi nə qədər böyümüş, şaxələnmiş, şəbəkələnmiş olardılar.

İqtisadi böhranlara da dözmək olar, kasıbçılığa da, antidemokratik rejimin repressiyasına, təqib-təzyiqlərinə də. Amma xarici dairələrdən idarə olunan məzhəb savaşına nə dövlət dözər, nə xalq,nə iqtidar, nə müxalifət, nə varlı, nə də kasıb.

# Tofiq Zülfüqarov Elmar Məmmədyarova qarşı

## Sabiq nazir xələfinin fəaliyyətini tənqid etdi; XİN-dən reaksiya gəldi; **ekspert:** "Nazir prezidentlə razılaşmayanda Tofiq Zülfüqarov kimi istefa verməyi də bacarmalıdır"

**Bir müddət öncə Latviyadan səfir vəzifəsindən geri çağırılan keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov uzun fasilədən sonra sükutu pozaraq mətbuata müsahibə verib və xeyli ilginc fikirlər söyləyib. Haqqin.az və virtualaz.org saytlarının rəhbəri Eynulla Fətullayevə müsahibəsində T.Zülfüqarov Azərbaycanın xarici siyasəti, Qarabağ münaqişəsinin tənzimlənməsi, nazir Elmar Məmmədyarovun fəaliyyəti barədə gözlənilməz açıqlamalarla çıxış edib.**


Tofiq Zülfüqarov


Elmar Məmmədyarov

Qeyd edək ki, T.Zülfüqarov 1999-cu ildə məşhur İstanbul sammiti ərəfəsində Qarabağın təslimini özündə ehtiva edən sülh razılaşmasının masa üzərinə çıxarılmasına etiraz əlaməti olaraq komandanın digər üzvləri, mərhum dövlət müşaviri Vəfa Quluzadə və prezidentin köməkçisi Eldar Namazovla birgə istefa vermişdi. Lakin sonrakı dönəmlərdə digər iki nəfər hər hansı post tutmasa da, T.Zülfüqarov Baltikyanı ölkələrə səfir təyinatı aldı.

**T.Zülfüqarov müsahibəsində deyib ki, onun səfir təyin olunması prezidentin özünün qərarı olub.** "Hərçənd ola bilsin o başqalarının da mövqeyini dinləmişdi... Mən KİV-lərdə tez-tez çıxış edirdim, ancaq xarici siyasətə dair qiymətləndirmələrlə. Bütün fəaliyyətim ölkənin milli maraqları ilə uzlaşmışdı. Görünür, bu amil dəyərləndirildi. Fikrimcə, əgər insanın dəqiq vətəndaş mövqeyi varsa və milli maraqlardan çıxış edirsə, onu gec-tez qiymətləndirəcəklər" - deyə, sabiq nazir əlavə edib.

**"Son 10 ildə aparılan danışıqlarda nə baş verib? Sizdə hansısa yeni informasiya varmı? Sizin danışıqlar apardığınız vaxtdan bu yana nə dəyişib" - suallarına cavabında T.Zülfüqarov XİN-in fəaliyyətinə tənqidi yanaşaraq bunları deyib:** "Təəssüf ki, danışıqlar barədə informasiyalar çox məhduddur. Və mənə elə gəlir ki, ictimaiyyət hansısa nüanslar barədə daha çox bilsə, yaxşı olar. Təsəvvür edin ki, mən danışıqlar barədə informasiyanı öz Xarici İşlər Nazirliyimizdən deyil, hansısa Qərb diplomatlarından alırdım. Bəziləri etimad göstərib informasiyaları bölüşürdülər. Mən bu və ya digər formada danışıqlar prosesinə cəlb edilmiş insanlarla görüşmüşəm. Merzlyakovla (rusiyalı həmsədr), Anjey Kasprşiklə, digər diplomatlarla. Biz səfirlərlə uzun qış gecələrində görüşəndə söhbət istər-istəməz Qarabağdan da düşürdü". Sabiq səfir bildirib ki, rəsmi qəzetlərdə yayılan informasiyalardan başqa heç bir məlumat ala bilməyib. "Mən hesab edirəm ki, bu düzgün deyil. Təkrar edirəm, mənim informasiyam var. Ancaq Azərbaycandan alınmış informasiya deyil" - deyə, vurğulayıb.

**Qarabağ danışıqlarına gəldikdə, T.Zülfüqarov prosesin dalana dirəndiyini də vurğulayıb: "Madrid prinsiplərinin irəli sürülməsindən sonra danışıqlarda heç nə baş vermir".**

**XİN-də baş verənlərlə, "üsyançı" diplomatlarımızla bağlı isə T.Zülfüqarov daha konkret fikirlər söyləyib:** "Bizim XİN-dəki problemlər adi gözlə də görünür. Və belə görünür ki, bu problemlər təkcə bizə yox, prezidentə də məlumdur. Ancaq nöqsanların aradan qaldırılması üçün artıq hansısa addımlar atılır. Hərçənd ki, nəticələr haqda danışmaq tezdir. Başa düşmək lazımdır ki, XİN-in avtoriteti toxunulmaz olmalıdır. Çünki bu nazirlik milli və dövlət maraqlarını qoruyur. XİN-dəki situasiya ictimaiyyətin müzakirəsinə açıla bilməz. Əgər XİN haqda çox danışırlarsa və yazırlarsa, deməli, bu strukturda böhran yetişib. Mən həyatımın xeyli hissəsini bu nazirliyə həsr etmişəm. Müstəqilliyin ilk günlərindən orada işləmişəm, milli maraqların təmin olunması üçün çox enerji sərf etmişəm. Ona görə də indi orada baş verənləri ağrı hissi ilə izləyirəm".

Göründüyü kimi, keçmiş nazir vaxtilə rəhbərlik etdiyi qurumun indiki durumuna təəssüflənib və tənqidlərini maksimum ehtiyatlı şəkildə çatdırıb.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, T.Zülfüqarov XİN-i tənqidində haqlıdır:** "Xarici İşlər Nazirliyi həqiqətən böhran yaşayır. Əlbəttə, indiki ağır iqtisadi və sosial durumumuzda digər nazirliklər də böhran içindədir. Ancaq XİN-dəki böhran Azərbaycanın imicinə təsir edir. İl ərzində xaricdə çalışan nə qədər diplomatımız geri qayıtmaq istəmədi. Bəli, bunun bir səbəbi onların siyasi baxışlarının dəyişməsi ilə bağlıdır. Ancaq başqa səbəb də var. Onlar geri qayıdıb işsiz qalmaq istəmirlər. Məsələ burasındadır ki, XİN-də diplomatların rotasiya prinsipi tanışlığa və "dayday" sisteminə əsaslanır. Neçə diplomat tanıyıram ki, gəncdir, enerjilidir, neçə xarici dil bilir, ancaq arxa-dayağı olmadığına, orta təbəqəli ailələrə məxsus olduqlarına görə çalışdıqları ölkədən geri qayıtdıqdan sonra XİN-də başqa vəzifəyə təyin olunmayaraq işsiz qalıblar. Onların yerinə telefonla tapşırılanlar XİN-də işə götürülüblər". **E.Şahinoğlu qeyd etdi ki, bunu görən xaricdəki diplomatlarımız geri qayıtmaqdansa, siyasi sığınacaq almağı doğru yol hesab edir:** "Bu isə beynəlxalq aləmdə Azərbaycanın imicinə mənfi təsir edir. Nazir olan kəs illik geniş mətbuat konfransı keçirər, jurnalistlərin ən müxtəlif suallarına cavab verməklə həm şayiələrin qarşısını alar, həm də daxili və xarici auditoriyaya lazımi mesajlar yollayar. Vilayət Quliyev xarici işlər naziri olanda ondan ən azı 3 dəfə müsahibə aldığımı xatırlayıram. Azərbaycan dilində səlis müsahibələr verir və çalışdığım "Azadlıq" qəzetini maraqlandıran heç bir sualı cavabsız buraxmırdı. Ondan əvvəlki nazir Tofiq Zülfüqarov da mətbuata açıq idi. O da aktual məsələlərlə bağlı mütəmadi müsahibələr verir, ictimaiyyəti bilgiləndirirdi. İndiki nazirin doğma dilində necə danışdığı hamıya bəllidir. Mən razıyam, qoy rus dilində müsahibə versin, ancaq mütəmadi ictimaiyyəti məlumatlandırsın. Yoxsa, jurnalistlərimiz Elmar Məmmədyarovu ayaqüstü hansısa tədbirin girişində və ya çıxışında tutan zaman açıqlamalar almaq məcburiyyətindədirlər, ya da gözləməlidirlər ki, nə vaxt hansısa ölkənin xarici işlər naziri ilə birgə mətbuat konfransı keçirəcək. Halbuki Azərbaycanın xarici siyasəti, yaxın və uzaq dövlətlərlə münasibətlərlə bağlı o qədər sualları yığılıb ki, bunları cavablandırmaq lazımdır". **Ekspert bildirdi ki, məlumatsızlıq problemləri dərinləşdirir, şayiələrin çoxalmasına şərait yaradır:** "Bu isə artıq ölkənin təhlükəsizliyi üçün ciddi təhdidə çevrilir. Nazirimiz Türkiyəni demirik, heç olmasa dilini mükəmməl bildiyi Rusiyanın xarici işlər nazirindən örnək götürsün, heç olmasa hər ilin sonunda geniş mətbuat konfransı keçirsin. Azərbaycanın müstəqillik tarixində Elmar Məmmədyarov qədər zəif xarici işlər nazirimiz olmayıb. Doğrudur, Azərbaycanda xarici siyasəti prezident formalaşdırır, ancaq nazir bu siyasətin yerinə yetirilməsində də aciz görünür. Məsələn, rəsmi Bakı balanslaşdırılmış xarici siyasət elan edib. Ancaq bu siyasət o demək deyil ki, ABŞ-ın ünvanına döşəməli, Rusiyanın Ermənistana dəstəyinə seyrçi qalmalıyıq. Bunun harası balansdır? Rusiya XİN-dən açıqlama verilir ki, Türkiyənin baş naziri Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsin, bizim nazirlikdən səs də çıxmır. İki cür insan var: yaradıcı və əmr qulu olanlar. Elmar Məmmədyarov ikincilərin zəifindəndir. Halbuki xarici işlər naziri yaradıcı ağlını da işlətməli, gərəkli hallarda prezidentə təkliflər verməyi də bacarmalıdır. Nazir prezidentlə razılaşmayanda Tofiq Zülfüqarov kimi istefa verməyi də bacarmalıdır".

Maraqlıdır, bəs sabiq nazirin dedikləri XİN-də necə qarşılanıb?

**XİN-in mətbuat katibi Hikmət Hacıyev "Yeni Müsavat"a açıqlamasında bunları bildirdi:** "Bu, Tofiq Zülfüqarovun şəxsi mülahizələridir, biz onun şəxsi mülahizələrini şərh etmirik". T.Zülfüqarovun hazırkı statusuna gəldikdə, XİN rəsmisi dedi ki, diplomat səfir vəzifəsindən geri çağırılıb və konstitusiyaya görə, ölkə prezidentinin sərəncamındadır. Maraqlıdır, keçmiş səfir geri çağırılandan sonra nazir tərəfindən qəbul olunubmu? H.Hacıyev bu barədə məlumatlı olmadığı üçün şərh verə bilməyəcəyini qeyd etdi. XİN sözçüsü T.Zülfüqarovla birgə geri çağırılan digər sabiq səfirlərin müvəqqəti də olsa, nazirlikdə işlə təmin olunub-olunmayacağı barədə də suala cavab verə bilməyəcəyini dedi.

❑ **Cavid TURAN**


Rüfət Səfərov


Eldar Sabiroğlu

# Oğlu Eldar Sabiroğluna səsləndi: "Qocaldın..."

## Sabiq müstəntiq "Hüququn qətli" adlı yazı hazırlayır

**Hakim Yeni Azərbaycan Partiyasının (YAP) üzvü, Müdafiə Nazirliyi mətbuat xidmətinin sabiq rəisi Eldar Sabiroğlunun prokurorluqdan qovulan oğlu Rüfət Səfərov atasına məktub yazıb. Musavat.com-un məlumatına görə, R.Səfərov sosial media vasitəsilə paylaşdığı məktubunda bildirib:**

"Eldar Sabiroğlu, qocaldın. Gözlərimin önündə saçların ağardı. Sənin "kişilik məktəb"ində ciddi dərs aldım. Bir bilsən ki, sənin kimi atam olduğuna görə necə xoşbəxtəm. Bir duysan da... Əzizim ata, səni 59 yaşın olması münasibətilə təbrik edir, cansağlığı, həyat yoldaşın Tahirə xanımla birgə gözəl günlər arzu edirəm. Sabiroğlu, yəqin edirəm ki, həyatda ən şirin şey canın olduğuna inanarsan... And olsun yeri və göyü yaradana ki, Səni canımdan çox sevirəm!"

**Rüfət Səfərov musavat.com-a açıqlamasında gələcək planları barəsində danışıb. O bildirib ki, hazırda bir yazı üzərində işləyir:** "Bir mövzu üzərində işləyirəm. Mövzunun adı "Hüququn qətli"dir. Bu yazıda Azərbaycanın hüquq sistemi tam çılpaqlığı ilə əks olunub. Onu da qeyd edim ki, ölkədən kənarda yaşamaq kimi fikrim yoxdur. Bu ölkədə qalacağam və zaman-zaman ciddi təkliflərim olacaq. Ölkədə hüquq sistemi çox acınacaqlıdır. Elə bəhs etdiyim təkliflərim də bununla bağlı olacaq. Baxın, ölkənin qanunverici orqanının sədri Oqtay Əsədov su məsələləri üzrə mütəxəssisdir. Baş nazirimiz 60-cı illərin maşınqayırmasında qalıb. Bundan sonra da millət üçün fəaliyyətimi davam etdirəcəyəm".

# Hakimiyyətə yaxın deputatdan yeni dəyişikliklər anonsu

## Zahid Oruc: “Prezident ən azı üç mühüm istiqamətdə böyük bir cəbhə açıb...”

**Ötən həftə prezident İlham Əliyev Bakının Xəzər rayonunun sakinləri qarşısında etdiyi çıxışda və Yeni il münasibətilə xalqa təbrikində islahatlarla bağlı qısa, ancaq kifayət qədər mühüm mesaj verdi. Prezident bildirdi ki, 2016-cı il idarəetmə sahəsində islahatlar “yeni formatda” davam etdiriləcək, vergi, gömrük orqanlarının, icra hakimiyyəti orqanlarının fəaliyyətində şəffaflıq təmin olunacaq.**

Bir çox ekspertlər prezidentin əslində yeni hökumət quracağının anonsunu verdiyini düşünürlər.

**Bu mövzuda “Yeni Müsavat”a danışan deputat Zahid Oruc olduqca maraqlı açıqlamalar verdi. Z.Oruca görə, ölkə başçısının çıxışındakı həmin tezislər 2016-cı il üçün böyük siyasi, iqtisadi dəyişikliklərin anonsu kimi də qəbul oluna bilər:** “Birinci növbədə nəzərə almalıyıq ki, ümumiyyətlə, dünyada ənənəvi iqtisadi sikllər, inkişaf modelləri dəyişir. Bir çoxları bunu yeni iqtisadi era kimi xarakterizə edirlər. Buna adekvat olaraq dünyada geopolitik sistemlərin də dəyişməsi qabardılır. Bu, təkcə Yaxın Şərq regionu ilə bağlı deyil. Postsovet məkanında da belə sürətli dəyişmələrin şahidiyik. Avtomatik olaraq istənilən hökumətlər əvvəlki kursla davam edə bilmirlər. Bu, təkcə neft amilinin əvvəlkindən fərqli olaraq güclü bir səviyyədə qalmaması ilə bağlı deyil. Əlbəttə, neftin rolu kifayət qədər böyükdür. Lakin bununla bərabər etiraf etmək lazımdır ki, hər bir xalqın inkişaf xüsusiyyətləri var və qarşıya qoyulmuş vəzifələrə nail olmaq üçün mühüm dəyişikliklər həyata keçirilməlidir. Bu baxımdan ölkə başçısı əslində belə düşünür ki, əvvəlki illərdə atılmış çox sərt addımlar, qərarlar öz nəticəsini daha böyük miqyasda verməli idi. Fakt bundan ibarətdir ki, xırda və orta sahibkarlığın bugünkü iqtisadi təsirlərə daha yaxşı cavab verə biləcəyi məsələsi üzə çıxıb. Çünki iri kampaniyalar məlum beynəlxalq konyuktura fonunda duruş gətirə bilmir. Biz bunu sadə dilə çevirsək, SOCAR brendi altında hərəkət etmək, həm xaricdə böyük vəsaitlər qoymaq, eyni zamanda daxildə əsas maliyyələşməni yalnız SOCAR üzərində aparmaq siyasəti öz yerini yeni sahələrə verməlidir”.

**Z.Oruc hesab etdi ki, bahalı neft erası bitib:** “Onun yerinə həmin o böyük pullara, milyardlara qərar verən hökumətdənsə, yeni sahələrin gücünü qəbul edən, yeni çağırışları öz fəaliyyətində güclü bir şəkildə nəzərə almağı bacaran məmur sistemlərinə ciddi ehtiyac var. Yəni texnologiyalar, qabaqcıl mütərəqqi modellər, hətta aqrar sferada müasir təcrübi sistemləri tətbiq eləməyə çox ciddi ehtiyac var. Sahibkarlıq üzərində müxtəlif tələblər, haqq qoymalar bu gün də var və bütün yerli icra orqanları öz hakimiyyətlərini onların üstündə qurublar. Sahibkarlığı nəfəs almağa qoymayanlardan biri də həmin qüvvələrdir. Üçüncüsü, inhisarçılığın ləğvi önəmli bir məsələ kimi meydana çıxıb. Bu amil və prezidentin məlum çıxışı avtomatik hökumətin özünün içərisində biznesi himayə edən dairələrin öz vəzifələri ilə vidalaşması üçün siqnallar verir. Yəni ya biznesi tutmalısan, ya da idarəetmədə çalışmalısan. Demokratiyanın təriflərindən biri də budur ki, idarə edənlər biznesdə olmamalıdır.

Dördüncü əsas önəmli məsələ idxal və ixrac əməliyyatında liberallaşmaya nail olmaqdır. Yəni əslində manatın neft çəlləyindən azad olmağını istəyiriksə və bunu maliyyə-bank termini ilə tənzimlənən üzən məzənnə adlandırmaq istəyiriksə, obrazlı qaydada deməliyik ki, manat Xəzər dənizindən çıxıb ölkə ərazisində üzməyi də bacarmalıdır. Bunun üçün də iqtisadiyyatın ətrafına çəkilmiş buxovlar, divarlar aradan qalxmalıdır. Əks halda, devalvasiyalar qaçılmaz olacaq və beləliklə də bu, hökumətlərin də fəaliyyətinə çox ciddi mənfi təsir göstərəcək. Çünki Azərbaycan insanının bu gün ən etimadlı yanaşdığı lider və qüvvə yeganə olaraq prezidentdir. Hər kəs də qərarları məhz ondan gözləyir. Heç bir başqa siyasi qüvvə, şəxs, partiya, hətta hökumətin içindəki şəxslər, o cümlədən parlament təmsilçiləri də belə bir nüfuzun beş-on faizi civarında deyillər. Ona görə də xalq etimadı ölkə rəhbərinə imkan verəcək ki, hökumətdə dəyişikliklərlə paralel, idarəetmə sistemini optimallaşdırmaqla şişmiş aparatlar, böyük kadr korpusları, dövlət hesabına saxlanan maşınlar, texniki xərclər və sairdən azad olunsun. Bir çox qurumlardan tamamilə azad olunmaq mümkündür. Adi departament, şöbə səviyyəsində olacaq təsisatları gətirib biz komitələrə, agentliklərə, hətta nazirliklərə çevirmişik".

**Deputatın sözlərinə görə, dövlət rəhbəri həm də öz komandasını sınağa çəkib:** “Bu fikri açıq söyləmək lazımdır ki, indi qabaqcıl texnoloqlar, neftdən kənar düşünməyi bacaranlar, ağıllarında, şüurlarında, sadəcə, asan pullara qərar verməyənlər, daşımalar sistemi, ölkənin coğrafiyasının üstünlüyündən faydalanmağı bacaranlar və sair kimi əsas menecerlər hazırkı dövrdə daha önəmlidir. Bu mənada icra orqanlarında da geniş dəyişikliklərin olacağını ehtimal edirik. Ən başlıca məsələ ondan ibarətdir ki, iqtisadiyyatın liberallaşması getməlidir ki, Azərbaycan insanı hər gün yuxusundan oyanıb London və ya Nyu-York birjalarında katirofkaları izləmək məcburiyyətindən azad olsun. Manatın kursu həmişə ölkədə siyasi sabitlik, təhlükəsizlik kursu kimi olub. Manatın kursu sadə insanları dövlət ətrafında birləşdirə bilib. Neft bumu sönürsə, əsl hökumətlərin vəziyyəti üzə çıxır, əsl peşəkarlar ortaya gəlir. Ona görə də cənab prezidentin çıxışındakı həmin tezisləri 2016-cı il üçün böyük siyasi, iqtisadi dəyişikliklərin anonsu kimi də qəbul eləyə bilərik. Bu mənada əminəm ki, hökumət çox mühüm qərarlar qarşısındadır. Cənab prezident də bu prosesləri aparmağa iradəlidir. Lakin etiraf eləmək lazımdır ki, bu, o qədər asan məsələ deyil. Yəni cənab prezident ən azı üç mühüm istiqamətdə böyük bir cəbhə açıb. Bir tərəfdən Qarabağ məsələsində dünya ermənçiliyi ilə savaş vəziyyətindədir. İkincisi, siyasi sistemdə dəyişikliklər həyata keçirmək yönündədir. Üçüncüsü, iqtisadi sferada böyük dəyişikliklər ərəfəsindədir”.




**Z.Oruc sonda vurğuladı ki, bu prosesin kifayət qədər ehtiyatlı aparılması gərəkdir ki, hökumət müxtəlif siyasi toqquşmalardan kənarda dayana bilsin.**

❑ **Etibar SEYİDAĞA**

---

# Başımızı aşağı edən liderlik



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Hər mənada olduqca ağır bir ilə, dönəmə qədəm basmışıq. İstər iqtisadi sahələr olsun, istərsə də geosiyasi münasibətlər sferası və ətrafımızda cərəyan edən və edəcək təhlükəli proseslər - bu il Azərbaycana və onun toplumuna ən ağır sınaqlar vəd edir. Bu sınaqlardan uğurla çıxmağın klassik resepti bəlli: ölkədə gec də olsa, təcili şəkildə iqtisadi-siyasi islahatlara başlamaq, milli vəhdəti qoruyub saxlamaq.**

Əslində birinci təmin edilmədən, o sırada sosial ədalət, qanunçuluq minimum səviyyədə bərqərar olunmadan milli vəhdət də mümkün deyil. Toxlarla ac-yalavacların, harın və zənginlərin işsiz- yoxsullarla hansı vəhdəti ola bilər ki?

Bu xüsusda dünya azərbaycanlılarının 31 dekabr sonuncu Həmrəylik Günü indiyədək olanların ən absurdu kimi göründü. Bu absurda manatın ikinci kəskin devalvasiyası ilə yanaşı, əlavə neqativ rəng qatan başqa bir məqam əlbəttə ki, il sonu narkotik alverçiləri əfvlə azadlığa buraxıldığı halda Qarabağ müharibəsi veteranı Tofiq Yaqublu və digər siyasi məhbusların qatı cinayətkarlar kimi zindanda saxlanması oldu.

Bax, belə-belə şeylərdə liderlik elədik ötən il...

***

Liderlikdən söz düşmüşkən, “Azərbaycan manatı Qazaxıstan təngəsi və Zambiya kvaçası ilə birgə 2015-ci ilin devalvasiyası üzrə lider olub”. Bunu isə artıq biz yox, ABŞ-ın nüfuzlu “Bloomberg” agentliyinin ekspertləri hazırladıqları illik hesabatda qeyd ediblər. Onların hesablamalarına görə, bu göstərici üzrə dördüncü və beşinci yerləri Belarus rublu və Argentina pesosu tutur. Devalvasia liderlərinin siyahısında yeddinci yerdə Ukrayna qrivnası qərarlaşıb. O, ötən il də həmin siyahıda olub.

Sən demə, manatımız hətta iqtisadiyyatı defolt həddinə çatan Ukraynanın milli pulundan da çox dəyər itiribmiş. Deməli, neftimiz olmasaydı, iqtisadi durumumuz Ukraynadakından da ağır olacaqmış...

Bunlar hələ ilkin simptomlardır. Hələ “Holland sindromu” Azərbaycanda özünü təzə-təzə göstərməyə başlayıb. Vay o gündən ki, ölkədə istehlak qiymətləri Avropada, ABŞ-dakı səviyyəyə çata *(bəlkə də artıq çatıb),* manat isə Zambiya kvaçasından da betər günə düşə...

***

Yuxarıda gözlənilən sınaqlardan yazdıq. Bu sınaqların əsas hissəsi şəksiz ki, hakimiyyət qarşısında durur. Görünür, o da artıq situasiyanın fərqindədir. Hər halda, gömrükdə monopoliyanın yığışdırıldığı haqda gələn xəbərlər belə kövrək təəssürat yaradır.

Sözsüz ki, inhisarçılıq, korrupsiya və rüşvət qiymətlərin yüksək olmasına səbəbdir, ancaq yeganə amil də deyil. Başqa, daha mühüm səbəb yerli istehsalın - istər kənd təsərrüfatı, ərzaq məhsulları olsun, istərsə də yüngül və ağır sənaye malları - yoxluğudur.

Bu sahələri necə dirçəltməyin yolu dönə-dönə deyilib - iqtisadiyyatın liberallaşdırılması, biznes azadlıqlarının təmin olunması və şəxsi təşəbbüsün stimullaşdırılması, iqtisadiyyatın “qan damarları” sayılan bankların normal fəaliyyətinə şərait yaradılması, bank islahatları. Dövlət aparatında ixtisarlar, büdcədən daş kimi asılı qalan mənasız qurum və fondların, o sırada paralel idarəçilik qurumlarının ləğvi, kəsəsi, idarəetmənin optimallaşması və məhdudlaşdırılması da öz həllini gözləyən məsələlərdir.

Bu il üçün ən əsas tezis isə o olmalıdır ki, hamımızı, Azərbaycanımızı dünyada başıaşağı edən liderlik fəlsəfəsindən həmişəlik imtina edilsin və ölkə, oradakı münasibətlər sistemi mücərrəd yox, normal inkişaf axarına qayıtsın. Yaxud qaytarılsın...



# Konqodakı səfirimizə məktub

Zamin HACI
zaminhaci@gmail.com

**Qənaət rejiminə keçməyimiz bir çox planetar projelərdən geri durmağımıza səbəb olmuşdur. Örnək üçün, Səyavuş Novruzovun Pluton planetinə "Azərsat" peykində (dünyada bir millətin peykinin onun dilinə və ölkədəki duruma uyğunluğu üzrə bu peykin adı birinci yerdə gedir), Hacı Madərin isə Saturna "Azərbat" qalaktikalararası kosmik stansiyasında uçaraq orda planetin halqaları üzərində təzə "Favorit" dükanı açması planları yarımçıq qaldı. Ən pisi isə odur ki, Xarici İşlər Nazirliyimiz Uruqvay, Kuba və Kolumbiyadakı səfirliyimizi bağlamaq niyyətindədir.**

Vay-vay... Bəs biz indi Kuba inqilabının dərslərini, Fidel Kastro yoldaşın tualetə getmədən 8 saat xalq qarşısında nitq söyləməsinin sirlərini ikinci-üçüncü əldən necə öyrənəcəyik? O cümlədən, Kolumbiyadan Pablo Eskobar irsini təzəcə əxz edirdik, bir dəfəyə 3 ton heroini Avropaya ötürürdük. Qabriel Qarsia Markesin ölümünə məhz bizim Boqotadakı səfirimiz İlqar Muxtarovun səbəb olduğu bütün Latın Amerikasında dillər əzbəri idi, respublikamız əməllicə tanınmışdı, bunun Qarabağ probleminin həllinə müsbət təsirləri mütləq vardır. Sən demə, İlqar müəllim Markesdən AYB-nin orqanı olan "Ədəbiyyat qəzeti" üçün intervü alarkən belə təklif edibmiş: "Gəlin sizə Elmar müəllimin həyatını danışım, bundan roman yazın". Yazıq Markes bundan sonra özünü Makondoya gedən qatarın altına ataraq intihar etmişdir.

Hələ Uruqvaydakı səfirliyimizi demirsən... Bu səfirlik də dəhşət vacib işlər görürdü, açığı, burda yazmaq olmur, dövlət sirridir. Ancaq keçmiş çekist-obaxeyis-karateist Eldar Mahmudovun Cənubi Afrika Respublikasında almaz daşımaq üçün açdığı səfirliyimiz böhrandan uğurlu çıxır, hələlik bağlanmaq məqsədi güdülmür. Əlbəttə, hələ neçə balon almaz daşımaq lazımdır, bunların pulu neft ölməmişdən qabaq verilibdir. Çibuti və qardaş Qambiyada, o cümlədən dost Burundi elində fövqəladə və səlahiyyətli səfirlərimizin taleyi necə oldu, onu heç Məmmədyarov da bilmir. Pul azalandan itkin düşüblər. Ya səfirliyin əmlakını qara bazarda qarabalalara satıb aradan çıxıblar *(bildiyiniz kimi, hazırda səfirlərimizi tutmaq çətindir, imkan eləyən aradan çıxır, diplomatik terminlə desək, "aradan cırır")*, ya da fil dişi almaq üçün materikin ortalarına gedərkən cəngəllikdə vəhşi heyvanlar tərəfindən aşkar edilib götürülərək yeyilmişlər.

Keçən ilin sentyabrında Niderlanddakı səfirliyimizin attaşesi Nahid Cəfərov qaçmışdı, üstəlik, belə bir intervü vermişdi: "Azərbaycanda insan hüquqlarının pozulmasını xaricilərə izah eləmək çətin idi. Bundan başqa, xarici dövlətlərdə Azərbaycanın diplomatlarına alverçi, biznesmen kimi baxırlar".

Prinsipcə, düzgün baxış bucağı idi. Guya bizim diplomatlar alverdən başqa nə edə bilərdilər? BMT nizamnaməsini təzədən yazası, yaxud Argentina ilə Britaniya arasında Folklend-Malvin adaları üstündə yaranan konflikti həll edəsi deyildilər. Bizim diplomatlar xaricə ancaq Azərbaycan həqiqətlərini - neft dolları, qara-qırmızı kürü, xalça-palaz, muğamat diskləri, narşərab, gilas mürəbbəsi, kənd qatığı, bildirçin yumurtası, çaşır və pərpətöyün turşusu, sürhüllü üçün qaxac, Cırtdan üçün yaxmac və sairə belə eksport məhsullarımızı daşıya bilərdilər. İndi təəssüf ki, bu məhsullar dolların günahı üzündən azalıbdır. Nəticədə diplomatiyamız da azalıbdır. Necə deyərlər, bağda ərik var idi, "Land of fire" var idi, bağdan neft qurtardı, "Evrovizqon" da qurtardı.

İndi söz Konqo Demokratik Respublikasındakı fövqəladə və səlahiyyətli səfirimiz Mobutu Sese Seko müəllimindir. Gör antilopdan, begemotdan-zaddan nə vurub göndərirsən, ana vətən dardadır, ətin qiyməti qalxır.

# Hakimiyyətin 2016-cı il planı masada




# İqtidar antiböhran proqramına keçdi - ixtisarlar başladı

## Neftin 2016-cı il üçün büdcədə nəzərdə tutulmuş 50 dollarlıq həddən də xeyli ucuzlaşması hökuməti radikal islahatlar aparmağa məcbur edir; gözlənilir ki, struktur islahatı nəticəsində bir neçə nazirlik və dövlət komitəsi birləşdirilsin; ixtisarlar ölkədə sosial gərginliyi artıra, eləcə də hakimiyyət daxilində narazılıqları tətikləyə bilər...

**2015-ci ildə neftin kəskin dəyərdən düşməsi ilə Azərbaycanda iqtisadi artım tempi azaldı, son illər ərzində ilk dəfə ölkədə iş yerləri bağlandı, manat il ərzində devalvasiyaya uğrayaraq iki dəfəyə yaxın dəyərini itirdi. Ölkənin neft gəlirlərinin azalması və qlobal iqtisadi böhranın hələ ötən ilin ortalarında ciddi hiss olunmasının hökuməti dövlət xərclərini azaltmağa və ixtisarlara məcbur edəcəyi aydın görünməkdə idi. 2015-ci ilin fevral ayında manatın ilk devalvasiyası hökumətin təcili tədbirlər görməsini zəruri etsə də, bir sıra amillər səbəbindən iqtidarda həm struktur, həm də hakimiyyət komandasında ciddi yenilənməni ertələdi. Düzdür, Nəqliyyat Nazirliyinin strukturunda ciddi dəyişikliklər edildi, biznesi, sahibkarları təhdid altında saxlayan MTN ləğv olundu, xüsusi xidmət orqanlarında ciddi struktur islahatları və ixtisarlar aparıldı.**

İqtisadiyyatın neftdən asılılığının kəskin azaldılması və qeyri-neft sektoruna keçirilməsi üçün hələ ötən ilin sonlarından bəzi islahatlar başlayıb. Analitiklər prezident İlham Əliyevin dekabrın 29-da Xəzər rayonunda sakinlərlə görüşündəki çıxışında islahatlarla bağlı mühüm mesaj verməsinə diqqət çəkir. Prezident bildirib ki, gələn il idarəetmə sahəsində islahatlar "yeni formatda" davam etdiriləcək, vergi, gömrük orqanlarının, icra hakimiyyəti orqanlarının fəaliyyətində şəffaflıq təmin olunacaq. Prezident yeni formatın nədən ibarət olacağını açıqlamasa da, analitiklərə görə, söhbət hakimiyyət sistemində islahatları sürətləndirmək, problemli sahələrdə əsaslı struktur dəyişiklikləri, idarəetmə sisteminin yenilənməsi və şəffaf idarəçilik prinsiplərinin daha geniş formada tətbiqindən gedir. Çünki neftin 2016-cı il üçün büdcəsində nəzərdə tutulmuş 50 dollarlıq həddən də xeyli ucuzlaşması büdcəyə yenidən baxılması zərurətini yaradıb. Prezident İlham Əliyevin tapşırığı əsasında hazırda hökumət bu məsələyə baxır və bəzi sahələrdə xərclərin ixtisarını nəzərdə tutur.

Xərclərin ixtisarı dövlət aparatının saxlanılması üçün büdcədə nəzərdə tutulan xərclərin azaldılmasını da əhatə edəcək. Bu çərçivədə hökumət artıq bir çox nazirliklərə, dövlət komitələrinə, büdcədən maliyyələşən digər təsisatlara xərclərin azaldılması üçün ştat vahidlərinin ixtisarını nəzərdən keçirmək barədə təlimat göndərib. Habelə büdcədən maliyyələşən təşkilatlara xidməti avtomobillərin sayının azaldılması, ezamiyyət xərclərinin məhdudlaşdırılması istiqamətində də işlər başlayır.

Məlumatlara görə, bu il hökumət qarşısında dayanan ən vacib məsələ neft bumundan sonrakı dövrə daha çevik və mobil idarəetmə strukturları formalaşdırmaqdır. Gözlənilir ki, struktur islahatı nəticəsində bir neçə nazirlik və dövlət komitəsi ləğv ediləcək. Təsadüfi deyil ki, Milli Məclisin ötən il keçirilən son sessiyasında bəzi deputatlar da büdcəyə yükə çevrilmiş komitələrin ləğvini gündəmə gətiriblər.

Bəzi iddialara görə, Gömrük Komitəsi ləğv edilərək səlahiyyətlərinin bir qisminin "ASAN xidmət" və Vergilər Nazirliyinə verilməsi nəzərdə tutulur. Ehtimal var ki, Kənd Təsərrüfatı Nazirliyi də ləğv edilsin, səlahiyyətləri İqtisadiyyat və Sənaye Nazirliyi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında bölüşdürülsün. Bundan başqa, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin ləğvi, funksiyalarının İqtisadiyyat və Sənaye Nazirliyinə verilməsi, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin ləğvi, səlahiyyətlərinin Maliyyə Nazirliyinə verilməsi nəzərdən keçirilir.

Böyük ehtimalla Gənclər və İdman Nazirliyi də ləğv ediləcək və səlahiyyətləri bölüşdürüləcək. Eyni zamanda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin, Statistika Komitəsinin, Diasporla İş üzrə Dövlət Komitəsinin ləğvi, səlahiyyətlərinin başqa qurumlara verilməsi nəzərdə tutulur.

Diasporla İş üzrə Dövlət Komitəsinin XİN-ə birləşdiriləcəyi gözlənilir. Qeyd edək ki, Xarici İşlər Nazirliyi xərclərə qənaət edilməsi üçün Azərbaycanın bəzi xarici ölkələrdəki diplomatik nümayəndəliklərinin və ticarət ofislərinin bağlanması prosesinə start verib.

Virtualaz.org saytı hansı ölkələrdə diplomatik nümayəndəliklərin bağlanacağını dəqiqləşdirib. Məlum olub ki, XİN artıq müvafiq siyahı hazırlayıb və tezliklə bir neçə ölkədə konsulluqlar, ticarət nümayəndəlikləri bağlanacaq. Bunların arasında Azərbaycanın Uruqvay, Kolumbiya və Kubadakı səfirlikləri, ticarət nümayəndəlikləri, Genuya, Livan, Bratislava, Xarkovdakı fəxri konsulluqlar, habelə Amerikanın Santa-Fe şəhərindəki fəxri konsulluq yer alacaq. Azərbaycan hökuməti hər il bu nümayəndəliklərin saxlanılmasına milyonlarla dollar xərcləyirdi. Bundan əlavə, məlum olub ki, Azərbaycanın Tailand, Oman, İraq və Əfqanıstandakı səfirliklərinin açılması "daha yaxşı zamanlara" təxirə salınıb. Azərbaycanın bu ölkələrə təyin olunmuş səfirləri var, ancaq onlar qonşu ölkələrdə mənzilləniblər.

"Yeni Müsavat"a hökumətə yaxın mənbələrdən o da məlum olub ki, hazırda bütün dövlət qurumlarında oxşar funksiyalarla bağlı araşdırma aparılır. Belə ki, bir çox qurumlarda eyni funksiya daşıyan idarələr, şöbələr var. Məsələn, bir neçə nazirliyin, o cümlədən Bakı Şəhər İcra Hakimiyyətinin yaşıllaşdırma idarələri var ki, bunların ləğvi gündəmdədir. Mənzil istismar sahələrinin ləğvi də ilk sıradadır. Bundan başqa, icra hakimiyyətlərinin tikinti idarələrində də ixtisarlar aparılacaq. Mənbə istisna etmir ki, Baş Prokurorluğun, DİN-in, Vergilər Nazirliyinin, Gömrük Komitəsinin və Ədliyyə Nazirliyinin tabeliyindəki istintaq idarələri də Rusiyada olduğu kimi vahid İstintaq Komitəsi adı altında birləşdirilsin.

Analoji proses Dövlət Neft Şirkətinin (SOCAR) idarələrində bu il daha da sürətlənəcək. Bildirilir ki, SOCAR artıq müəyyən layihələrin maliyyələşdirilməsinə vəsait ayrılmasını dayandırıb.

"Azərenerji", "Azəriqaz", "Azərbaycan Hava Yolları" QSC, Dövlət Dəmir Yolu İdarəsi, "Azərkimya" və digər təşkilatlarda da ixtisarların aparılması yönündə göstəriş verilib. Bu təşkilatlarda hətta 15-20 faizdən də yuxarı ixtisarların aparılması gözlənilir.

Aydındır ki, bu ixtisarlar ölkədə sosial gərginliyi artıra, eləcə də hakimiyyət daxilində narazılıqları tətikləyə bilər. Çünki bu ixtisarlar minlərlə insanın işsiz qalması, eləcə də işini itirmiş orta məmur ordusu deməkdir. Məhz bu səbəblərdən hökumət yaxın aylarda işsizliyin ölkədə sosial təlatümlərə gətirib çıxarmaması üçün daha ciddi antiböhran tədbirləri düşünməlidir, ya da neftin qiymətində əhəmiyyətli artım olacağına ümid etmək zorundadır.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 1 (6322) 5 yanvar 2016

# Şiə şeyxinin edamı Bakını da zor seçimə tuş etdi - ilginc gəlişmə

**Yanvarın 2-də Səudiyyə Ərəbistanında şiələrin lideri şeyx Nimr ən-Nimrin edam edilməsi Yaxın Şərq və ətrafında yeni təhlükəli situasiyaya yaradıb. Yaranmış vəziyyətlə bağlı bəzi analitiklər lokal qarşıdurmaların məzhəb müharibələrinə çevriləcəyi proqnozu ilə çıxış etməyə başlayıblar. Bu isə faktiki, o anlamda gəlir ki, sünni və şiələrin yaşadığı ölkələrin heç biri potensial olaraq yeni təhlükədən sığortalanmayıb.**

## Azərbaycanın İslam koalisiyasına qoşulma perspektivi gündəmdən çıxır? Səudiyyə Ərəbistanı-İran qarşıdurması məzhəb savaşı yox, maraqlar savaşıdırsa, rəsmi Bakı üçün prioritet nə olmalıdır...

Ancaq bu, mülahizədir. Çox şey əlbəttə ki, müsəlman toplumun, sıravı müsəlmanların şüur səviyyəsindən, yaşanan olaylara onların nə dərəcədə gerçək dini-bəşəri dəyərlər prizmasından baxacağından, bir də əlbəttə ki, nüfuzlu, söz sahibi olan din xadimlərinin mövqeyindən asılı olacaq.

Yəqin ki, proseslər total məzhəb qarşıdurmasına gətirib çıxarmayacaq. Hər halda, indi XXI əsrdir və insanlar kifayət qədər ayıqdırlar, nəyin niyə baş verdiyinin, o cümlədən belə qarşıdurmaların ən çox hansı dairələrə əl verdiyinin yaxşı fərqindədirlər...

***

Xatırladaq ki, özünü dünya şiələrinin lider ölkəsi sayan İranın hörmətli ali dini lideri Ayətullah Əli Xameneyi Səudiyyə Ərəbistanı rəhbərliyinin məlum edam aktını həyata keçirməklə "siyasi səhvə yol verdiyini və bunun ona baha başa gələcəyini" bəyan edib. Artıq Tehranda Səudiyyə Ərəbistanı səfirliyinə hücum edilib, Məşhəddə isə Səudiyyənin baş konsulluğu dağıdılıb. Bundan əlavə, Nimr ən-Nimrənin edamına cavab aktı kimi İranın 27 sünni məhbusu edam edəcəyi xəbəri yayılıb.

Lakin bir çox ekspertlər situasiyanı dini qarşıdurmadan çox, Səudiyyə Ərəbistanı-İran qarşıdurması kimi dəyərləndirməyin tərəfdarıdırlar. Çünki hər iki ölkə müsəlman dünyasının müvafiq kəsimində dominantlığa can atır. Yəni söhbət ilk növbədə milli maraqların təmin edilməsindən gedir.

Səudiyyə Ərəbistanının ötən ay İslam hərbi koalisiyası yaratmaq təşəbbüsü ilə çıxış eləməsi terrorla mübarizə aparmaq imperativi ilə yanaşı, həm də bu maraqlar kontekstində - İranı izolə eləmək istəyi ilə izah edilir. Təsadüfi deyil ki, İranı koalisiyaya qoşulmaqdan dərhal və qəti şəkildə imtina elədi, üstəlik, bu təşəbbüsü sərt şəkildə pisləyərək rəsmi ər-Riyadı qınadı.

Tehranın narahatlığı həm də 34 müsəlman ölkəsinin, o cümlədən Türkiyə və Pakistanın qoşulduğu koalisiyanın onu təcrid duruma salma perspektivi ilə bağlı idi. O da məlumdur ki, koalisiyaya qoşulmaq üçün ər-Riyad Bakıya da dəvət göndərib. Azərbaycan XİN-dən isə bu təklifin öyrəniləcəyi bəyan edilib. Amma üstündən yetərincə vaxt ötməsinə baxmayaraq rəsmi Bakı hələlik konkret mövqe ortaya qoymayıb.

***

Sözsüz ki, şiə şeyxinin edam edilməsi Azərbaycanın seçimini ağırlaşdıracaq. Çünki İran Səudiyyə Ərəbistanı rəhbərliyinə qarşı indi qat-qat radikal mövqedədir, nəinki son Həcc ziyarəti zamanı Məkkədə yüzlərlə iranlı zəvvarın faciəvi şəkildə həyatını itirməsinə


Şeyx Nimr ən-Nimr

görə. Tehran Bakının ər-Riyada doğru addımını güclü qıcıqla qarşılaya bilər.

Hərçənd ötən yazılarımızda vurğuladığımız kimi, əsas müttəfiqlərimiz Türkiyə və Pakistanın da yer aldığı koalisiyaya qoşulmaq ölkəmizə pozitiv dividentlər vəd edir, nəinki neqativ. Seçim isə ləngiyir. Belə görünür, rəsmi Bakı əhalisinin əksəriyyəti şiə müsəlmanları olan ölkəmizə cənub qonşumuzun müdaxilə imkanlarını da ciddiyə alır. Bu imkanlar son Nardaran hadisələri zamanı özünü növbəti dəfə çılpaqlığı ilə göstərmişdi...

Bütün hallarda seçim yəqin ki, milli çıxarlar əsasında ediləcək. Necə ki, İranın özü daim ümmət maraqlarından yox, dövlət maraqlarından çıxış edir. Bir şey dəqiqdir ki, Azərbaycan Tehranın dövlət maraqları olmasa belə, məzhəb qarşıdurmasında İran tərəfdə yer alıb özünü müsəlman aləminin əsas kəsiminə qarşı qoya bilməz.

Əlbəttə ki, dini baxışlarına görə insanların edamı pislənməlidir. ən-Nimr və həmfikirlərinin qətli də lənətə layiq hərəkətdir, antibəşəridir, kitaba, Qurana sığmayan bir vəhşilik aktıdır - necə ki, bütün dünya məhz bu mövqedə dayanıb. Fəqət, bu olaydan hansısa siyasi dairələrin İslam dünyası və müsəlman vəhdəti əleyhinə istifadəsi, vəhşiliyə vəhşiliklə, İŞİD-sayağı cavab verilməsi də yolverilməzdir.

Bu mənada Azərbaycan ümumilikdə qarşıdurmadan kənarda dayanmağı, imkan daxilində barışdırıcı mövqe tutmağı, eyni zamanda öz daxilində dini tolerantlığa hər hansı təhlükəni qətiyyətlə önləməyi bacarmalıdır. Eyni zamanda Azərbaycan yaranmış vəziyyətdə gərək onu da unutmasın ki, bu gün qardaş Türkiyə işğalçı Ermənistanla sərhədləri bağlı saxladığı halda, şiə İranı təcavüzkarla sıcaq münasibətlər qurub və düşmən ölkəni ayaqda saxlayan iki ölkədən, İrəvanın ən sadiq müttəfiqlərindən biridir. Bu da Tehranın xarici siyasətdə dini dəyərlərə deyil, dövlət maraqlarına üstünlük verdiyinə şübhə yeri saxlamır.

Tehran bu siyasəti dəyişməyə hazırlaşmırsa, o zaman Bakı da ən əvvəl özünün milli maraqlarını əsas götürməlidir - o cümlədən strateji seçim məsələsində və təbii ki, qardaş Türkiyə ilə sinxron qərarlar vermək şərti ilə. Günümüzün reallıqları, regionda gedən ziddiyyətli proseslər də bunu diktə edir.

❑ **Siyasət şöbəsi**

# Kürd dövlətinin yaranması real deyil, çünki...

## Politoloq Qabil Hüseynlini sözlərinə görə, Amerika bu məsələdə çox ziddiyyətli bir rol oynayır

**Yaxın Şərqdə gedən geosiyasi proseslər və müharibələrin hədəflərindən birinin dünya güclərinin bölgədə kürd dövləti yaratmaq planının tərkib hissəsi olduğu getdikcə daha aydın şəkildə ortaya çıxır. Bugünlərdə ABŞ-ın vitse-prezidenti Co Bayden Şimali İraqdakı kürd administrasiyasına işarə edərək bölgədə kürd dövlətinin yarana biləcəyinin mümkünlüyünə eyham vurdu. Bir sıra ekspertlər hesab edir ki, bölgədə kürd dövləti faktiki olaraq yaradılır və belə bir dövlətin yaranması çox dövlətlərə təsirsiz ötüşməyəcək.**

Xüsusən də tərkibində kürd millətindən vətəndaşları olan dövlətlərə hansısa şəkildə təsir göstərə biləcəyindən söz edilir. Bu mövzuda danışan **politoloq Qabil Hüseynli** bildirdi ki, İraqın şimalında Məsud Bərzani əslində çoxdandır müstəqil dövlət quruculuğuna başlayıb. İraqın başının vətəndaş qarşıdurmasına, terrorçu qruplaşmalara qarışdığı bir vaxtda Bərzani bir sıra ciddi addımlar atıb: "Əvvəla, kürd bölgəsini türkmənlərin, əslində azərbaycanlıların yaşadığı Kərkük hesabına bir xeyli genişləndirmiş və Kərkük türklərinin mərkəzi sayıla biləcək Ərbil şəhərini də ələ keçirib, onun ətrafındakı böyük bir vilayəti də İraqın şimalında olan kürd muxtariyyətinin tərkibinə daxil edib. Son dövrlərdə bütün bunlar ABŞ-ın, müəyyən qədər də Türkiyənin xoş münasibəti altında həyata keçirilir. Bərzani kifayət qədər hiyləgərliklə hərəkət edir. O, İŞİD-ə qarşı mübarizədə peşmərgə qüvvələrindən müəyyən qədər istifadə edə bilmiş və ABŞ-la Avropanın dəstəyini ala bilmişdi. PKK-nın Suriya qolu olan PYD-ni də Şimali Kürdüstandan vurub çıxararaq Türkiyə ilə öz arasında xoş münasibətlərin bərqərar olmasına imkan yaradıb. Türkiyənin Rusiya təyyarəsini vurmasından sonra Rusiyanın Türkiyəyə qarşı bir sıra ittihamlarının ifşa edilməsində Şimali İraqdakı Kürd Administrasiyası böyük rol oynadılar. Bərzani tez-tez Ankaraya gəlir və sanki türklərin "saqqızını oğurlayıb". Bir qədər bundan əvvəl isə ABŞ-ın vitse-prezidenti Co Bayden bəyanat verərək Şimali Kürdüstanda bir kürd dövlətinin yaradılacağının ilk siqnallarını vermişdi".


Qabil Hüseynli

**Politoloqun sözlərinə görə, Amerika bu məsələdə çox ziddiyyətli bir rol oynayır. Bir yandan İraqın ərazi bütövlüyünün pozulmayacağını, digər tərəfdən də kürdlərə müstəqil dövlət vəd edir. Türkiyənin özü də bölgədəki dövlətlərdən heç birinin ərazi bütövlüyünün pozulmayacağına bəyan etsə də, Şimali Kürdüstan Muxtariyyəti ilə əlaqələri qoruyub saxlayır. Siyasilər bir tərəfdən bir şey deyir, başqa tərəfdən də bir dövlətin formalaşması prosesinin getdiyinə biganə yanaşırlar:** "Məsələn, Bərzaninin rəhbərlik etdiyi muxtar ərazidə müstəqil dövlətçiliyin artıq bütün atributları var. Milli bank sistemi formalaşdırılıb, ayrıca bir bayraq, dövlətin gerbi təsis edilib, hətta özləri pul kəsməyə də başlayıblar. Yeganə fərqləndirici xüsusiyyət ondan ibarətdir ki, Şimali İraq Muxtariyyətinin bayrağı ilə PKK-nın bayrağı arasında ciddi fərqlər var. Bu fərqlər də onlar arasında qarşıdurmanın əsasını qoyan cəhətlərdəndir. Məsələn, bu yaxınlarda onlar arasında ümumkürd bayrağı olması məsələsində polemika yaşanarkən Bərzani PKK-nın bayrağına işarə vuraraq bildirmişdi ki, bu bayraq kürdlərin milli çalarlarını əks etdirmir. Hətta bildirmişdi ki, PKK etdikləri əməllərə görə bir vaxtlar peşman olacaq. Bu da Türkiyədə rəğbətlə qarşılanmışdı".

**Q.Hüseynli vurğuladı ki, kürd dövlətinin yaranması Türkiyə və ABŞ-ın razılığı olmadan mümkün olmayacaq. Kürd dövlətinin yaranmasının bölgədə zəncirvari reaksiya verərək digər ərazilərə sıçrayacağını istisna etmək olmaz:** "İraq da, Suriya da çoxmillətli dövlətlərdir. Əgər bu bölgədə ərazi dəyişmələrinə gedib yeni dövlətlərin yaranmasına rəvac verilsə, yeni biçilməyə başlasa, bu, kifayət qədər ciddi ziddiyyətlər doğuracaq. Bu ziddiyyətlər müharibə alovlarını yenidən qızışdıra bilər. Ona görə də mən kürd dövlətinin yaranacağını çox ehtiyatla qarşılayıram. Bərzani və onun yaratdığı muxtariyyət riskli addımlar atır. Amma riskli addımlarını diplomatik manevrlərlə pərdələyə bilir.

Son vaxtlar İraqda şiələrin İraqın bütövlüyü uğrunda mübarizəyə qalxması isə onu deməyə əsas verir ki, kürd dövlətinin formalaşması o qədər də asan olmayacaq. Kürd dövləti yaranarsa, konkret Azərbaycana hansısa şəkildə təsir edib-etməyəcəyinə gəlincə, Azərbaycanla həmin ərazi arasında çox böyük bir məsafə var. Kürd dövlətinin yaranması daha çox Türkiyəyə zərbə ola bilər. Çünki həmin dövlət bir presedent kimi qonşuluqdakı dövlətlərdəki kürdlərin də həmin dövlət ətrafında birləşməsinə şərait yarada bilər. Azərbaycana isə birbaşa təsir etməsi gözlənilən deyil".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 1 (6322) 5 yanvar 2016

# Neft mütəxəssisindən ilginc hesablama və açıqlamalar

## İlham Şaban: "Bu il neft hasilatında Azərbaycan bəlkə də pik həddən sonrakı bir enmə ilə üzləşəcək; ötən illə müqayisədə 1,1 milyon tondan çox azalma olacaq"

**ABŞ-ın 40 illik fasilədən sonra öz neftini Avropa bazarına çıxarması yeni situasiya yaradıb. "Caspian Barrel" Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanla neft-qaz mövzusunu əhatə edən söhbətimizi öncə bu məsələdən başladıq.**

## "Hökumətin ümidi yenə də neft sektorunadır"

***- İlham bəy, Amerika neftinin dünya bazarına çıxarılması Azərbaycan kimi neft ölkələrinə nə vəd edir?***

- Təkcə Azərbaycan neftindən deyil, ümumiyyətlə, neft bazarında qiymətlərə təsirlərdən danışmaq daha düzgün olardı. Çünki bizim neftin qiyməti əslində heç zaman dünya birjalarında təyin olunmayıb. Bəzi KİV-lərimiz bunu yazıblar və beləcə də "dil-ağıza" düşüb. Reallıqda isə Azərbaycan neftinin qiymətini SOCAR-ın İqtisadiyyat və Marketinq İdarəsinin satışa təklif etdiyi partiyalar və onlara olan təkliflər nəticəsində şirkətlərin FOB qiymətləri formalaşdırır. Düzdür, elə hallar olur ki, SOCAR Trading SİF müqavilə əsasında neftimizi özü birbaşa alıcıya çatdırır. Ancaq bunlar əksəriyyət təşkil etmir, çünki risk dərəcələri daha böyükdür. O ki qaldı Amerika neftinin bazara çıxarılmasına, bu, təbii ki, ilkin olaraq bazara qiymət baxımından öz neqativ təsirini göstərəcək. Hamını maraqlandıran məqam budur ki, ABŞ bazara nə qədər xammal çıxardacaq? Bu, şirkətlərin kommersiya maraqlarından asılı olacaq. Çünki ABŞ eyni zamanda həm də nefti idxal edir axı. ABŞ şirkətlərinin bir qisminə yerli bazarda neft satmaq sərfəli deyil, çünki bundan daha çox neftayırma zavodları qazanır. O cür şirkətlər ixraca meylli olacaqlar. Digərləri isə - vertikal inteqral şirkətlər - yerli bazarda satışa üstünlük verəcəklər. Buna görə də ABŞ özü nəhəng bir istehsalçı olmaqla yanaşı, ən böyük bir istehlakçıdır. Eyni zamanda bu məsələlərdə maraqlardan çıxış edərək daim mütəhərrik hərəkət etmək imkanı var.

***- 2015-ci ilin enerji sektorunun yekunları barədə fikirlərinizi bilmək istərdik. Azərbaycan ötən ili necə yola saldı?***

- Cari ildə neft sektorunda müəyyən stabilləşmə əldə etməyə nail olundu. Bu da ilk növbədə "BP-Azərbaycan" şirkətinin müqavilə sahələrində əldə etdiyi uğurlardan irəli gəlirdi. Baxmayaraq ki, həm "Azəri-Çıraq-Günəşli", həm də "Şahdəniz" müqavilə sahələrində 3 platformanı modernizasiya edərkən hasilat müxtəlif vaxtlarda tam dayandırılmışdı. Bununla belə, BP şirkəti "Azəri-Çıraq-Günəşli" yatağından 31,1 milyon tona yaxın neft hasil etməyə nail oldu. Düzdür, ötən illə müqayisədə hasilat təqribən 400 min tona yaxın azalsa da, ancaq konsorsium bir il əvvəl onun qarşısında qoyulmuş plan və öhdəlikləri artıqlaması ilə yerinə yetirməyə müvəffəq olub. Ümumilikdə ölkə üzrə götürsək, 41,7 ton neft hasil ediləcək ki, bu da ötən illə müqayisədə cəmi 200 min ton aşağı nəticədir. Qaz həcmlərinə gəldikdə isə, burada da vəziyyət stabildir: ümumi qaz hasilatında azalma tempi il ərzində 02,-03% arasında olsa da, əmtəəlik qaz hasilatında daim artım olub, özü də artım tempi 6%-i də keçərək 19 milyard kub metr ətrafında yuvarlaqlaşıb. Pis nəticə deyil. Azərbaycanda onu deyim ki, heç zaman bu qədər əmtəəlik qaz hasil edilməmişdi.

Elektrikə gəldikdə isə, baxmayaraq ki, cari ildə hava şəraiti normal keçib - demək olar ki, sərt qış olmayıb, isti yay isə ölkədə 1 aydan çox davam etmir - elektrik enerjisinin istehsalında heç bir azalma müşahidə edilməyib. "Azərenerji"nin elektrik stansiyaları yenə enerji istehsalında rekord vurmaqdadır. 2014-cü ildə enerji monopolistimiz 22,7 milyard kilovat/saat elektrik enerjisi istehsal etmişdisə, ötən il heç də bu rəqəmdən geri qalmadı. Baxmayaraq ki, cari ildə ölkənin elektrik sisteminə öz töhfəsini alternativ enerji mənbələri də kifayət qədər verdilər. Onlar il ərzində ilk dəfə olaraq 10 milyon kilovat saatdan çox elektrik enerjisi istehsalına nail oldular.

***- Bəs bizi 2016-cı ildə nə gözləyir?***

- Təbii ki, Azərbaycanın enerji sektorunda əsas yer yenə də neftin payına düşəcək. Baxmayaraq ki, neft hasilatında bu il Azərbaycan bəlkə də pik həddən sonrakı bir enmə ilə üzləşəcək. Ancaq bu, uzun illər əvvəl proqnozlaşdırılan bir enmə olduğundan həm sahə mütəxəssisləri üçün, həm də hökumət üçün hansısa şok demək olmayacaq. Beləliklə, 2016-cı ildə hasilat heç də İqtisadiyyat və Sənaye Nazirliyinin ötən il Milli Məclisə təqdim etdiyi sənədlərdə olduğu kimi, 40,7 milyon səviyyəsində də olmayacaq. Çünki rəhbər komitənin son iclasında "Azəri-Çıraq-Günəşli" yatağında bu il üçün ilk dəfə hasilatın 30 milyondan bir qədər az olması razılaşdırılıb. Bundan əlavə, digər yataqlarda da axı obyektiv səbəblərdən hasilat azalır. Çünki bu yataqlar "qocalıq" dövründədir. Yəni burda qeyri-adi elə bir şey yoxdur. İkincisi, neftin qiymətinin aşağı olması səbəbindən investisiya proqramı bütün şirkətlərdə olduğu kimi - bazar prinsiplərinə uyğun olaraq - Azərbaycanın neft sektorunda da tətbiq olunur. Yəni bu, o deməkdir ki, hasilat ötən illə müqayisədə 1,1 milyon tondan çox azalacaq. Mənim proqnozuma görə, 2016-da hasilat 40,2-40,4 milyon ton arasında dəyişə bilər.



***- Deməli, Azərbaycanda şirkətlər xərclərini azaltmaq yönündə addımlar ata bilərlər. Bəs iqtisadiyyatımız üçün bunun neqativ halları olmayacaq ki?***

- Əvvəla, bir şeyi yaddan çıxartmaq lazım deyil ki, neft elə bir xammaldır ki, o, yaxşı pula ancaq qlobal bazarda çevrilir. İstər Səudiyyə kimi neft nəhəngi olsun, ancaq neftini beynəlxalq bazara çıxartmadan mənfəəti demək olar ki, yoxdur. Bizim özümüz cəmi 6,5 milyon ton neft emal edirik. Ancaq daxili bazarda cəmi 1,3 milyon tondan bir qədər artıq avtomobil benzini və 0,7 milyon ton da dizel yanacağı satırıq. Yəni bunun qiyməti cəmi 1 milyard dollar edir. İxrac etdiyimiz neftdən gələn mənfəət bu il 7 milyard dollar olacaq. Bu, ancaq Neft Fonduna yönələn gəlirdir. Ancaq SOCAR-ın özünün də ayrıca qazancı var axı. Ona görə də neft şirkətləri, o cümlədən SOCAR bu məsələdə bazara uyğun addımlar atırlar. Çünki xammala çəkilən məsrəflər və onun satış qiymətləri arasında daim bir mütənasiblik qorunmalıdır. Məsələn, "BP Global"ın orta müddətli proqnozunda bildirilir ki, şirkət 2017-ci ilə qədər kapital xərclərini 22.9 milyard dollardan 17-19 milyard dollara qədər və ya 25% azaltmaq niyyətindədir. Kəşfiyyat və hasilat üzrə xərclər 2014-cü ildəki 19 milyarda qarşı 15-16 milyard dollar səviyyəsində gözlənilir. Marketinq və emal sahəsində, eləcə də şirkətin digər sahələrində xərclər 2014-cü ildəki 3.9 milyard dollardan 2-3 milyard dollara qədər azaldılacaq. İndi bütün neft şirkətləri xərclərini azaltmaq barədə qərarlar qəbul edirlər. Bir qədər əvvəl SOCAR prezidenti Rövnəq Abdullayev də belə bir əmr imzaladı. Bu əmrə əsasən, qurumların tərkibinə daxil olan bölmələrin sayının və ştat vahidlərinin yenidən nəzərdən keçirilməsi, maliyyə resurslarının ilk növbədə daha az vəsait tələb edən yüksək rentabelli sahələrə yönəldilməsi nəzərdə tutulur. Bu müddəa SOCAR-ın ştat cədvəlinin daha optimallaşdırılması yönündə addımlar atılması deməkdir. Yəni indiyə qədər SOCAR işçilərinin sayı artıq 54 minə qədər azaldılmışdı. Ancaq onun hesabatları ilə tanış olanda biz nə görürdük: 2011-ci ildə SOCAR-da 79,9 min nəfər çalışırdı.

2014-cü ildə SOCAR ilk dəfə olaraq neftin maya dəyərini 1,4% azaltmağa nail olmuşdu, nəticədə 1 barel neftin orta qiyməti 16 dollara qədər azalmışdı, tonu 91,63 manat. Bunun əsas səbəblərindən biri də SOCAR-ın işçilərinin azaldılması hesabına baş vermişdi. Belə ki, SOCAR neftinin maya dəyərində ən yüksək payı - 17,7%-lə əmək haqları xərcləri təşkil edir. SOCAR üç pilləli idarəetmədən ikipilləli idarəetməyə keçməklə aralıq təşkilatları ləğv edir, sonra isə yeni optimal idarəetmə mexanizminə start verəcək, baş idarələrdəki rəhbər işçilərin ixtisarına. Çünki işçilərin sayı azaldığı halda onlara rəhbərlik edən menecment də azalmalıdır.

***- Bu vəziyyət hara qədər davam edəcək?***

- Nəticə etibarilə 2018-ci ilin sonuna SOCAR mərhələ-mərhələ işçi sayını 40 minə qədər azaldacaq. Bu isə bazar şəraitində həm onun idarəçilik çevikliyini artırmağa imkan verəcək, həm də istehsal etdiyi məhsulların rəqabətə davamlılığına təsir edəcək. Yəqin çoxları sözügedən əmrdə həmçinin SOCAR tərəfindən sosialyönümlü layihələrin, sponsorluq və xeyriyyəçilik fəaliyyətinin, maliyyə yardımlarının məhdudlaşdırılması məsələsinin olduğunu görüblər. Ancaq əhəmiyyətinə fikir verməyiblər. Bunu biz müstəqil ekspertlər bəlkə neft gəlirləri gələn andan dəfələrlə vurğulamışdıq, dəyirmi masalarda qeyd etmişdik ki, SOCAR özünün fəaliyyətini neft üzərində qurmalıdır. Çünki bu onun professional fəaliyyətidir. Ancaq nədənsə, hökumət bizim Milli Neft Şirkətini mütəmadi olaraq neftdən kənara çəkməkdə maraqlı idi. Daha doğrusu, SOCAR hökumət üçün yaxşıca "sponsor" idi: həm paytaxtda, həm regionlarda iri sosial-mədəni, kütləvi layihələr həyata keçirirdi. SOCAR-ın rəsmi audit olunmuş hesabatı ilə tanış olsanız, görərsiniz ki, 2010-dan başlayaraq, hər il təqribən 220-230 milyon manat arasında SOCAR bu sahəyə vəsait xərcləmişdi. Düzdür, inanılası deyil ki, hökumət SOCAR-dan tam əlini üzsün, ancaq hesab edirəm ki, kifayət qədər bu xərclər azaldılacaq və SOCAR həqiqətən diqqətini öz professional sahəsində cəmləşdirəcək. Və sosialyönümlü layihələr də məhz neftçilər üzərində qurulacaq.

***- Onda belə çıxır ki, 2016-cı ildə hökumət neft sektoruna ümid etməməlidir. Ancaq bu da bir reallıqdır ki, qeyri-neft sektorunun da büdcəyə verə biləcəyi ciddi vəsait kütləsi yoxdur. Razılaşırsınızmı?***

- Mən belə deməzdim. Hökumətin ümidi yenə də neft sektorunadır. Sizinlə tam razıyam ki, qeyri-neft sektoruna ümid yoxdur. Əlbəttə, bir ölkənin ki, müstəqillik əldə edəndən kibrit və ya diş təmizləyən istehsal etmək ağlına gəlməyibsə, bu heç də yaxşı əlamət deyil. Metallurgiya sənayesinə 1 milyard dollar yatırım qoyulub və ancaq indi də o zavodlar faktiki heç nə istehsal etmirlər. Əlavə dəyər yaradan sənaye başqa şeydir, qeyri-neft sektoruna milyardlarla neft vəsaiti investisiya etmək, bu, tamam başqa bir şeydir. Təəssüf ki, bunların fərqini, həm də hansı yatırımın faydalı iş əmsalını heç də hər oxumuş bilmir. Keçək neftimizə və büdcə məsələlərinə. Bu il Neft Fondu büdcəyə 6 milyard manat vəsait ödəməlidir. Hesab edək ki, 2016-cı ildə manatın ortа məzənnəsi dollara qarşı 2 oldu. Onda bu, o deməkdir ki, 3 milyard dollar Neft Fondu transfert etsə bəsdir. Bəs bunun üçün Azərbaycanın nə qədər "qara qızıl" satması lazımdır? Hesab edək ki, neqativ proqnoz - 45 dollardır. Onda 67 milyon barel kifayət edər. Bəs Neft Fonduna nə qədər mənfəət nefti gəlməlidir? Təqribən 120 milyon barel. Neft Fondunun 1,5 milyard dollar xərclərinin də ödəmək üçün 33 milyon barel gərəkdir. Fondun ixtiyarında 20 milyon barel mənfəət qalır. Ancaq bu il istənilən halda neftin qiymətinin 50-dən yuxarı olacağı haqda proqnozlar daha çoxdur, nəinki aşağı qiyməti ilə bağlı. Bu il isə orta qiymət hələlik 53 dollardır, ötən ilin 101 dollarına qarşı. Söhbət Azeri Ligth neftindən gedir...

❑ **Elşad PAŞASOY**

**Dövlət Neft Fondunun 2016-cı ildə proqnozlaşdırdığı gəlir müzakirəyə səbəb olub. Əksər ekspertlər bunun mümkün olmadığını bildirirlər. Qeyd edək ki, Dövlət Neft Fondunun 2016-cı il büdcəsi haqqında" fərmanla 6711564,1 min manat, xərcləri isə 8181399,7 min manat məbləğində təsdiq edilib.**

# Dövlət Neft Fondu yüksək riskli aktivlərə yatırım edəcək?




## Ekspertlər fondun proqnozlaşdırdığı 603 milyonluq gəlirin real olmadığını bildirirlər...

**Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a bildirib ki, bu, çox optimist yanaşmadır və real deyil:** "2015-ci ildə Dövlət Neft Fondunun valyuta rezervləri 38 milyard dollardan bir az yuxarı idi. Amma aktivlərinin idarə olunmasından əldə etdiyi gəlir 60 milyon civarında oldu. Amma indi rezervlər 33 milyarda düşüb. Fondda 33 milyard manata yaxın vəsaitimiz var. Bundan 603 milyon gəlir götürülməsi çox optimist və uzaq bir proqnozlaşdırmadır. Çünki Azərbaycanın vəsaitini yerləşdirdiyi aktivlərin likvidliyi, gəlirliliyi çox aşağıdır. Ona görə ki, fond daha dayanıqlı və güvənilən qiymətli kağızlara yatırım edib. Bu, düzgün qərar idi. Onların da gəlirliliyi çox aşağıdır. Neft Fondunun əlində çoxlu sayda daşınmaz əmlak var. Onların idarə olunmasından gələn gəlirlər ilbəil özünü doğrultmur. Hətta dəyəri belə aşağı düşür. Ən çox dəyəri düşən Moskvada alınmış aktivdir. O, alınarkən 180 milyon dollardan artıq vəsait xərclənmişdi, indi qiyməti iki dəfədən də çox aşağı düşüb. Bundan başqa, rus rublunda və bu kimi qiymətli kağızlarda da fondun 5 faiz vəsaiti var ki, həmin valyutaların da dəyəri dollara nisbətən xeyli aşağı düşür. Bunun özü belə aktivlərin idarə olunmasında gəlirliliyi xeyli dərəcədə aşağı salır. Ona görə də Neft Fondu belə optimist açıqlama verməsinin səbəbini izah etməlidir. Amma indiki makroiqtisadi göstəricilərə görə, dünyada gedən proseslərə görə, bu rəqəmə çatmaq real görünmür. Gəlirlər 2015-ci ildəki kimi 60-70 milyon civarında olsa, yaxşıdır, uğur hesab etmək olar. Amma 603 milyon real deyil. Digər bir problem də ondan ibarətdir ki, Neft Fondunun 30 tona yaxın qızıl ehtiyatı var. Fond bu qızılı alarkən unsiyası 1300-1400 dollar civarında dəyişirdi. İndi 1060 dollara qədər ucuzlaşıb. Getdikcə də daha çox ucuzlaşma perspektivi var. Yaxın aylarda bunun şahidi olacağıq. Burada da itkilər olacaq. Dövlət Neft Fondu açıqlama verməlidir ki, 603 milyonluq proqnoz nəyə əsaslanır? Hansı parametrlərə, hansı indikatorlara görə bu hesablamanı aparıblar?"

**Ekspert Sami Əliyevin sözlərinə görə isə Dövlət Neft Fondu 2016-cı ildə, açıqladığı kimi, 603 milyon manat qazana bilməyəcək:** "Neft Fondu 2016-cı ildə valyuta aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından təxminən 603 milyon manat qazanmaq niyyətindədir. Müqayisə üçün deyim ki, fond 2015-ci ildə bu mənbədən 494,4 milyon manat qazanmalı idi. Ancaq ötən ilin 9 ayında aktivlərdən qazanc cəmisi 51,2 milyon manat olub. Üç rübdə gözləntisi 10,3 faiz təmin edilən fondun sonuncu rübdə gözləntisinin tam yerinə yetirilməsi möcüzə olardı. Hətta manatın dəyərini 48 faiz itirməsi də problemi həll etmək iqtidarında deyil. 37 milyard dollarlıq aktivlərin idarə olunmasından illik qazanc 494,4 milyon manat proqnozlaşdırıldığı halda nədən 34 milyard dollarlıq aktivlərin qazancı 603 milyon manat proqnozlaşdırılıb? Axı aktivlərin böyük hissəsinə malik olan ABŞ dollarının yeni ildə də möhkəmlənməsi gözlənilir. Dolların bahalaşması paralel olaraq Amerika qiymətli kağızlarının gəlirliliyini də aşağı salacaq. Digər valyutaların, avro, rubl, yuan, lirənin isə ucuzlaşması proqnozlaşdırılır. Qızıl və daşınmaz əmlak bazarı 2016-cı ildə də yüksək qazanc vəd etmir. Nəzərə alaq ki, neftin ciddi bahalaşması gözlənilmədiyindən aktivlərin nəinki indiki səviyyədə qalması, hətta azalması qaçılmazdır. Ən azı, Mərkəzi Bankın çətin vaxtında Neft Fondunun dəstəyi vacib olacaq. Belə çıxır ki, Neft Fondunun 2016-cı ildə əsas strategiyası gəlirləri artırmaq üçün yüksək riskli və yüksək qazanclı aktivlərə yatırım etmək olacaq. Ya da manatın ucuzlaşmasına ümid edəcək. Əks halda, neftin indiki qiymətləri ilə aktivləri qorumaq və büdcə gəlirlərini icra etmək çətin olacaq".

Qeyd edək ki, fərmana əsasən, Neft Fondunun bu il gəlirləri Azərbaycanın payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər-6094053,0 min manat, akt hesabı ödənişlər - 2,1 milyon manat, neftin və qazın tranziti - 12,6 milyon manat, fondun valyuta aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından əldə edilən gəlirlər - 602 790,1 min manat hesabına formalaşacaq. Fondun vəsaitlərinin 6 milyard manatı dövlət büdcəsinə transfer ediləcək. Bundan başqa, Cənub Qaz Dəhlizi layihələrində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsinə daha 1 822 800,0 min manat sərf olunacaq. Xərclərin qalan hissəsi, yəni 90 milyon manat məcburi köçkünlərin məskunlaşdırılmasına, 70 milyon manat Samur-Abşeron kanalının yenidən qurulmasına, 137 621,7 min manat Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə, 36 558,0 manat gənclərin xarici ölkələrdə təhsil almasına yönəldiləcək. ARDNF-nin idarə olunmasına isə 24420,0 min manat xərclənəcək.

❑ **Röya RƏFİYEVA**

# Spirtli içkilərin kartla satışı: narazılar da var, razılar da...

## Azyaşlıların tünd içkilər almalarının qarşısı alınır, amma istehlakçıların hüquqları da pozulur

**"Aksiz markası ilə markalanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi qaydaları" haqqında Qanunun qüvvəyə minməsi ilə bu ilin 1 yanvar tarixindən etibarən Azərbaycanda spirtli içkilər nağd pulla satılmır. Mağazaları gəzdiyimiz zaman şahidi olduq ki, həqiqətən də paytaxtda yerləşən iri ticarət mərkəzlərində kartsız spirtli içkiləri almaq mümkün deyil. Mağaza sahibləri bu haldan məmnundurlar. Onlarla söhbətimiz zamanı bildirdilər ki, bu yolla azyaşlıların spirtli içki almalarının qarşısı alınacaq. Lakin alıcılar hesab edirlər ki, bu, onların istehlakçı hüquqlarının pozulmasıdır.**



Bəs bunun ölkə iqtisadiyyatına nə kimi xeyri var?

Məsələ ilə bağlı musavat.com-a danışan **iqtisadçı alim Vüqar Bayramov** bildirib ki, dünya ölkələrində belə bir təcrübə mövcud deyil: "Öncə onu qeyd edək ki, dünya praktikasında xüsusi növ məhsulların kartla satılması təcrübəsi yoxdur. Sadəcə olaraq, bəzi inkişaf etmiş ölkələrdə spirtli içkilərin xüsusi mağazalarda satılması təcrübəsindən istifadə olunur. Mağazalar olur ki, orada spirtli içkilər və tütün məhsulları satılır. Ancaq təbii ki, yaş limiti də burada öz rolunu oynayır. Misal üçün, Amerikada 18 yaş, bəzi ölkələrdə isə yaşı 21-dən az olan vətəndaşlara spirtli içkilər satılmır. Buradan deyə bilərik ki, Azərbaycanda tətbiq edilən yeni mexanizimlər inkişaf etmiş ölkələrdə tətbiq edilmir. Lakin Azərbaycanda bu təcrübənin tətbiq edilməsində əsas məqsəd spirtli içkilər və tütün məmulatlarının satışında vergidən yayınmaların qarşısını almaqdır".

**Ekspert bildirib ki, spirtli içkilərin satışı üzrə vergidən yayınma kifayət qədər yüksək idi:** "Spirtli içkilərin və tütün məmulatlarının bir qismi qeyri-leqal şəkildə ölkəyə daxil edilirdi. Bu da onların vergiyə cəlb edilməsinə imkan vermirdi. Spirtli içkilərin və eləcə də tütün məmulatlarının plastik kartlar vasitəsilə satılması imkan verəcək ki, həmin dövriyyəni idarə etmək mümkün olsun. Bu, həm vergidən yayınmanın, həm də aksizi olmayan markaların bazara çıxarılmasının qarşısını alacaq. Əslində bu müsbət haldır. Eyni zamanda xüsusən də idxalda tam leqallaşmanın həyata keçirilməsinə ehtiyac var. Bəhs etdiyimiz məhsullar tamamilə leqal formada ölkəyə daxil olduqdan sonra onların pərakəndə satış mağazalarına verilməsinə sənədləşmələr qaydasında olacaq. Bu da imkan verəcək ki, plastik kartları tətbiq etməklə satışı tam şəkildə icra etmək mümkün olsun".

**İstehlakçı hüququnun pozulması barəsində isə V.Bayramov aşağıdakıları bildirib:** "Sözsüz ki, bu praktikanın tətbiq edilməsi vətəndaşlara çətinliklər yaradır və yaradacaq. Çünki spirtli içkilərdən istifadə edənlərin bir qismi yaşlı nəsildir ki, onların da plastik kartları yoxdur. Cərimələr də yüksək olduğu üçün mağazaların böyük bir qismi nağd şəkildə bu məhsulların satışını həyata keçirməyə ehtiyatlanırlar. Bu baxımdan deyə bilərik ki, bəli, praktikanın tətbiqi vergidən yayınmanın qarşısını alsa da, xüsusilə yaşlı nəslin spirtli içki almasına da çətinlik yaradacaq".

❑ **Əli RAİS**



# Xalça Muzeyinin işdən çıxarılan direktoru yenidən kabinetində peyda oldu

**Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin işdən uzaqlaşdırılan direktoru Röya Tağıyeva yanvarın 4-də yenidən muzeydəki kabinetində peyda olub. Onun kabinetində nə işlə məşğul olduğu bilinmir. Məlumata görə, R.Tağıyeva muzeyə iki fəhlə ilə gedib. Oradan nə aparmaq istədiyi isə bəlli deyil.**

Yada salaq ki, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Mədəniyyət və Turizm Nazirliyinin kollegiya iclasında 71 yaşlı R.Tağıyevanın işinə 1 yanvar 2016-cı il tarixində son veriləcəyini bildirmişdi.

Bundan bir qədər əvvəl isə R.Tağıyevanın muzeydəki fəaliyyəti haqda Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinə şikayət daxil olmuşdu. Muzeydə "ölü can"ların saxlanıldığı, əmlakların talandığı haqda məlumatlar vardı.

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 1 (6322) 5 yanvar 2015

# “MTN işi” XİN-ə də sıçradı - Pakistandakı səfirin geri çağırılmasının sirri

## Diplomat Daşqın Şikarovla Eldar Mahmudovun əlaqələrini özünü təcridxanada asan polkovnik İlqar Əliyev həyata keçirib

**“MTN işi” bir çox dövlət qurumları ilə yanaşı diplomatik korpusa da sıçrayıb. Oktyabrın 17-də Eldar Mahmudov nazir vəzifəsindən çıxarılandan sonra aydın oldu ki, əksər dövlət qurumlarında onunla bu və ya digər formada ilişkiləri olan vəzifəlilər var. E.Mahmudov tutduğu postdan qovulandan sonra onun Xarici İşlər Nazirliyində də geniş “kadr bazası” olduğu haqda məlumatlar yayılmışdı.**

İslam Əməkdaşlıq Təşkilatının Avropa İttifaqı yanındakı keçmiş səfiri Arif Məmmədov da bu məlumatları dolayısı ilə təsdiqləyən açıqlama vermişdi. Bildirmişdi ki, Eldar Mahmudovun vəzifədən azad edilməsindən sonra səfirliklərdə çalışan MTN əməkdaşlarının bir qismi vətənə dönməyəcək. “Yeni Müsavat”a daxil olan son məlumata görə, bir neçə gün əvvəl prezident İlham Əliyevin sərəncamı ilə geri çağırılan səfirlər sırasında da E.Mahmudovla ilişkilərə malik diplomatlar olub. Yada salaq ki, dövlət başçısının imzaladığı sərəncamlarla Pakistan, Küveyt, Bolqarıstan, İtaliya və Misirdəki səfirlərimiz - sıralama üzrə Daşqın Məzi oğlu Şikarov, Tural Anar oğlu Rzayev, Emil Zülfüqar oğlu Kərimov, Vaqif İsmayıl oğlu Sadıqov və Şahin Şakir oğlu Abdullayev vəzifələrindən geri çağırılıblar.

Aldığımız məlumatda deyilir ki, Pakistandan geri çağırılan Daşqın Şikarovla Eldar Mahmudovun əlaqələri olub. Bu əlaqələr özünü təcridxanada asan polkovnik İlqar Əliyev vasitəsilə həyata keçirilib. Belə məlumat var ki, 2015-ci ilin əvvəlində İ.Əliyev ailəsi ilə birgə Pakistanda səfirin qonağı olub. İ.Əliyevin səfirlə etdiyi söhbətlərin mövzusu bəlli deyil. Geri çağırılan D.Şikarovun Azərbaycana qayıdandan sonra “MTN işi” üzrə araşdırma aparan istintaqçıların suallarını cavablandırmaq zorunda qalacağı haqda da məlumat var.

### İlqar Əliyevin müəmmalı intiharı: kamera yoldaşı da göyçaylı imiş

Bakı Şəhər Prokurorluğu ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Antiterror Mərkəzinin rəis müavini vəzifəsində çalışmış polkovnik İlqar Əliyevin müəmmalı ölüm işi üzrə araşdırmaların ilkin nəticələri haqda açıqlama yaymağa tələsmir.

Ortada isə polkovnik İlqar Əliyevin Bakı İstintaq Təcridxanasında (BİT) özünü asmasını şübhə altına alan çoxsaylı məlumatlar var. Məsələn, polkovnikin mələfəni haradan alması, özünü haradan və necə asması, BİT nəzarətçilərinin həmin vaxt harada olmaları və digər suallar ortadadır. İlqar Əliyev MTN-də sıradan bir işçi olmayıb. Onun adı illərlə ictimai-siyasi fəallara qarşı qanunsuz əməliyyatlarda, qanunsuz dinləmələrdə, qanunsuz gizli çəkilişlərdə hallanıb. Sahibkarlara qarşı etdiyi qanunsuzluqlar haqda isə saysız-hesabsız məlumatlar var.

Belə bir şəxsin həbsdəykən özünü asması çox ciddi suallar yaradır. Ona ölmək üçün “kömək”lik olunduğu iddiaları da səslənir. Ən maraqlısı odur ki, İlqar Əliyevin meyiti BİT-dən çıxandan 2 gün sonra - 2015-ci il dekabrın 22-də orada saxlanılan digər məhbus Manaf Paşayevin də meyiti aşkar olundu. Rəsmi məlumatda onun da özünü asdığı deyilirdi. M.Paşayevin İlqar Əliyevin kamera yoldaşı olduğu haqda məlumat vardı. Belə ehtimallar da irəli sürülür ki, M.Paşayev İ.Əliyevin ölümü haqda məlumatlara malik olub və bu üzdən o da eyni üsulla aradan götürülüb.


İlqar Əliyev

“Yeni Müsavat”a daxil olan son məlumata görə, Manaf Paşayev İlqar Əliyevin yerlisi olub. Onların ümumi tanışlarının olduğu haqda da məlumatlar var. 8 dəfə həbsdə olmuş M.Paşayevin ölümü ilə bağlı Sabunçu Rayon Prokurorluğunda cinayət işi başlanılıb. Hər iki məhbusun ölümü CM-in 125-ci - özünü öldürmə həddinə çatdırma maddəsi üzrə araşdırılır - lakin 2 eyni motivli işlər olsa da, araşdıran qurumlar fərqlidir.

Ölümlərin baş verdiyi məkan eynidir, qanun qarşısında məhbus İlqar Əliyevlə məhbus Manaf Paşayev eyni statusdadırlar, amma birincinin ölümünün səbəbini Bakı, ikincinin isə Sabunçu prokurorluqları araşdırır. Niyəsini isə bilən yoxdur!

Yada salaq ki, İlqar Əliyevin ölümündən sonra doğulduğu Göyçayın Çərəkə kəndində dəfn ediləcəyi xəbəri yayılmışdı. Sonradan isə onu Bakıdakı “Qurd qapısı” deyilən ərazidəki qəbiristanlıqda dəfn etdilər. Manaf Paşayevin isə Göyçayda dəfn edilməsi xəbəri var.

Qeyd edək ki, İ.Əliyev ötən il dekabrın 20-də saat 15:55 radələrində Bakı İstintaq Təcridxanasının ikinəfərlik kamerasında müəmmalı şəkildə ölüb. Rəsmi məlumata görə, kamera yoldaşı telefon danışığı hüququndan istifadə etmək üçün kameranı tərk etdiyi qısa müddət ərzində orada tək qalmış İ.Əliyev mələfəni ip formasına salaraq pəncərədəki dəmir barmaqlığa bağlayaraq özünü asıb. Kamera yoldaşı qayıtdıqdan sonra hadisə ilə bağlı dərhal müəssisənin əməkdaşlarına məlumat vermiş və tibb heyətinin iştirakı ilə təxirəsalınmadan İ.Əliyevin həyatının xilas edilməsinə yönələn tədbirlər görülməsinə baxmayaraq, həmin anda ölüm halı artıq baş verdiyindən ona göstərilən tibbi yardım nəticəsiz qalmışdır. Hadisə barədə dərhal aidiyyəti istintaq orqanlarına, İ.Əliyevin qohumlarına və müdafiəçisinə məlumat verilib. Hadisə yeri Bakı şəhər prokurorluğunun əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə müayinə edilmişdir. Fakt üzrə Cinayət Məcəlləsinin 125-ci maddəsi ilə cinayət işi başlanılmış və istintaq aparılır.

❑ E.MƏMMƏDƏLİYEV

# Qərblə barışmağın tək yolu - islahatlara getmək

## Mehman Əliyev: “Əks təqdirdə, bu vəziyyət ciddi fəsadlara yol aça, hətta sosial partlayışla bitə bilər”


Mehman Əliyev

**Ölkə daxilindəki məsələlər həll olunmadan xarici məsələlər həllini tapa bilməyəcək. Çünki daxili və xarici məsələlər bir-birinə bağlıdır. Hakimiyyət də bunu yaxşı başa düşür. Ona görə də bu məsələlər paralel olaraq həll olunacaq".**

**“Turan” informasiya agentliyinin direktoru Mehman Əliyev** bu fikirləri “Yeni Müsavat”a açıqlamasında bildirdi: “2016-cı il Azərbaycanda islahatlar dövrü olacaq. Düzdür, bu, çətin prosesdir. Amma beynəlxalq təşkilatların köməyinə ehtiyac var və bununla bağlı danışıqlar aparılır, hətta təməl də qoyulub. Məsələn, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma Bankı və başqa strukturlar bu prosesdə iştirak edirlər. Ona görə də Azərbaycan üçün bu qurumlarla əməkdaşlıq etmək qaçılmazdır. Bu əməkdaşlıq prinsipcə var, sadəcə olaraq, genişlənəcək və daha ciddi praktiki çərçivədə olacaq.

Çünki başqa çıxış yolu yoxdur. Əvvəl islahatlar imitasiya olunurdu, bu da neft amili ilə bağlı idi. Hesab edirdilər ki, neft var və islahatlar tədricən aparıla bilər. Məsələn, "ASAN xidmət" prinsipcə islahatdır. Sadəcə olaraq, bu, bir istiqamət idi. Bunu bütün sahələrdə geniş şəkildə aparmaq lazım idi. Təəssüflər ki, vaxtında bu addımlar atılmadı və vəziyyət ağırlaşdı. Artıq elə vəziyyət yaranıb ki, neftin qiymətinin artacağına ümid yoxdur, ona görə də islahatlardan başqa çıxış yolu qalmır".

**M.Əliyev güman edir ki, hökumət islahatları sürətləndirsə, o halda Qərbdən təzyiqlər də səngiyəcək və münasibətlərdə normallaşmaya start veriləcək.**

**ABŞ Konqresinin sanksiya hədələrinə gəldikdə, ekspert bildirdi ki, Konqresdəki sanksiya layihəsini daha çox siyasi məhbuslar, insan haqlarının durumu məsələsinə bağlayırlar:** “Ancaq hakimiyyət islahatlara başlasa, Azərbaycana qarşı sanksiyalar üçün heç bir əsas olmayacaq. ABŞ, sadəcə olaraq, bununla demək istəyir ki, vaxtilə Azərbaycan tərəfindən sözdə qəbul olunan islahatlara gedilməyib. Yəni Azərbaycanı tələsdirir, deyir ki, vəd verilib, amma əməl olunmayıb, ona görə də bəyan edirlər ki, islahatlar aparın. Çünki qeyri-stabil iqtisadi və sosial vəziyyət yaranıb, bu da qeyri-siyasi stabilliyə çıxara bilər. Amerikanın da regionda maraqları var, o istəmir ki, Azərbaycanda qeyri-stabillik olsun. Bu mənada Azərbaycanı tələsdirirlər”.

**M.Əliyev manatın devalvasiyası, neftin qiymətinin aşağı düşməsi şəraitində Azərbaycan vətəndaşlarının durumunun ağırlaşmasını da real sayır. Hesab edir ki, bu vəziyyət ciddi fəsadlara yol aça, hətta sosial partlayışla bitə bilər:** “Əgər ölkədə kasıbların sayı gündən-günə çoxalırsa, sosial partlayışın olması da mümkündür. Biz istehlak zənbilinə və yaşayış minimumu səviyyəsinə baxsaq, görərik ki, xeyli insan artıq yoxsulluq dərəcəsinə gəlib çatıb. Bu, real vəziyyətdir. Hələ mən işsizliyin xeyli artmasından danışmıram. Bu vəziyyət əlbəttə ki, sosial təlatümlərə gətirib çıxara bilər. Hər bir valideynin öz ailə-uşağı qarşısında öhdəlikləri var, o, ailəsini yedizdirməli, geyindirməli, sağlamlığına baxmalıdır”.

**Milli Məclisin deputatı Zahid Oruc Azərbaycanla Qərbin münasibətlərinin perspektivləri barədə danışarkən məsələyə daha geniş kontekstdə yanaşmağı zəruri saydı:** “Hakimiyyətin Qərblə münasibətlərinin hansı xətlə inkişaf etməsi iki suala cavabdan asılıdır: Ukraynanın Avropa Birliyinə üzvlüyünün sürətlənəcəyi və Gürcüstanda yeni iqtidarın formalaşacağı təqdirdə Azərbaycanın xarici siyasət kursuna təzyiqlər güclənəcək. Yəni neytrallıq və balanslı modelin əleyhinə olan beynəlxalq proseslər dərinləşəcək. Faktiki olaraq indiki şəraitdə Cənubi Qafqazda pat vəziyyətidir. Hər hansı tərəfin xüsusi üstünlüyü yoxdur. Baltikyanı ölkələrə NATO-nun infrastrukturu nə qədər gətirilsə də, ruslarla hərbi savaş onun sərhədləri daxilinə sıçrayası deyil”.

**Z.Orucun qənaətincə, o zaman Azərbaycan üçün manevr etmək daha da çətinləşə bilər:** “Belə ki, münasibətləri hazırda gərginləşməkdə davam edən Rusiya və Türkiyə çalışacaq ki, bu bölgədə indiyədək qurulmuş hərbi-siyasi və iqtisadi dayaqlarını əldə saxlasınlar. Rəsmi Bakının daha çox Ankara ilə işbirliyinə can atması və Moskva ilə türklərin qırılmış iqtisadi ittifaqını özünə götürmək istəməsi dövlətimizin nəinki Avropadan, eləcə də Rusiyadan sərt demarşlar almasına səbəb ola bilər. Azərbaycanın hazırkı hədəfi Brüssel və Berlinlə pozulmuş dialoqu bərpa etməkdir. Baxmayaraq ki, Vaşinqton bütün Avropa Birliyini özünün diktəsi altında saxlaya bilir, bununla bərabər, ölkəmizin Qərbdən öz döndərməsi faktiki olaraq siyasi və iqtisadi təcridetmə tərəfdarları kimi çıxış edən anti-Azərbaycan qüvvələrinə böyük fürsət verir. O biri yandan daxildə həyata keçirilən mühüm siyasi islahatların beynəlxalq dəstəkdən məhrum olunması maliyyə və iqtisadi blokun yenidən qurulması tələbləri qarşısında olan bir ölkə üçün tamamilə arzuolunmazdır. Faktiki olaraq, Ermənistan bizimlə informativ və diplomatik təzyiq dili ilə danışan dövlətlərin hamısından istifadə etməyə çalışır”.

**Vəziyyətin gərginliyini nəzərə alan Z.Oruc hesab edir ki, mövcud durumda siyasətin başlıca vəzifəsi dostlarımızı artırmaqdır, düşmənlərimizi yox:** “Əgər bir az da açıq söyləsək, Qərblə konfrontasiya bizim təhlükəsizliyimizi ermənilərdən daha çox təhdid edir. Belə ki, bir çox maliyyə aktivlərimiz və əsas ticarət partnyorlarımız məhz oradadır. Yeni iqtisadi modelə keçid ərəfəsində olan bir ölkə üçün belə həlledici dövrdə xarici tərəfdaşlarını dəyişmək olduqca risklidir. Asiya qitəsi siyasi çətir yaratmaq gücünə malik deyil. Ona görə də manatın kursu kimi xarici siyasət kursumuz da ötən illərdə yaşanan turbulentliyi aradan qaldırmağa qadir olmalıdır. İkinci mühüm məsələ, İranın beynəlxalq siyasi və neft məkanına qayıtmasıdır. Təəssüf ki, ekspert və təhlil cameəmiz bu haqda çox səthi fikirlər yürüdürlər”.

**Deputat qeyd etdi ki, regionun geopolitikası İranın xeyrinə dəyişməkdədir:** “Kimsə deyə bilər ki, Tehranın izolyasiyadan çıxarılması onun Qərbin müttəfiqinə çevrilməsi ilə nəticələnmədiyindən qafqazlarda siyasi düzən məhz bu amilə görə dəyişməyəcək. Doğru mülahizə saymadığımız belə yanaşmanı inkar edən ən mühüm arqument İranın Cənubi Qafqaza təkcə zəif neft qaz-rəqabəti prizmasından baxması deyil, Tehranın hər zaman burada qərarlaşmış Qərb kompaniyalarını özünün milli maraqlarına və dövlətçiliyinə təhlükə saymasıdır. Ona görə də güclənən İran Ermənistana və Azərbaycana daha çox nüfuz etməyə çalışacaq. Bu isə növbəti gərginlik mənbələri deməkdir. Dünənə qədər Bakıdan platsdarm istəyən Qərb indi öz maraqlarını burada məhz Tehranın zərbələrindən qorumağa məcbur olacaq. Çünki cini şüşədən özləri buraxıblar. Hakimiyyət məhz bunları nəzərə alıb Nardaranı ”yaşıl inqilab" üçün əlverişli laboratoriya sayanlardan o imkanı alsa da Azərbaycanda dini dairələrin siyasi hakimiyyət uğrunda mübarizədə real qüvvəyə çevrilməsi tam aradan qalxmayıb. Ona görə də Azərbaycana inqilab ixracının qarşısını almaq üçün Qərbin köməyinə ehtiyac duyuruq. Yetərincə praqmatik, lakin həm də dövlətçilik mənafelərinin təminatında iradəli bir xətt yürüdən İlham Əliyevin Qərblə ortaq nöqtələr tapacağına və iqtidarı devrim planları ilə hədələyən mərkəzləri neytrallaşdırcağına əminik".

❑ Cavìd TURAN

YENİ MÜSAVAT
N 1 (6322) 5 yanvar 2016

# Siyasi məhbus ailələri Yeni ili necə qarşıladılar...

**Azərbaycanda xeyli sayda siyasi fəal bir neçə ildir bayramları həbsxana divarları arasında keçirir. Yeni il ərəfəsində onlar əfv edilmədi və 2016-cı ili də həbsxanada, ailə üzvləri isə onlarsız qarşıladılar. İki üzvü olmadan 2016-cı ili qarşılayan məhbus ailəsi də oldu.**

## Əksəriyyət bayram keçirməyib; Nigar Yaqublu: "Atam həbsdə, Nərgiz yox, necə Yeni il keçirə bilərik?"


Nigar Yaqublu


Raqif Kərimli

**Raqif Kərimli:** "...Bayramı şən keçirdik"
**Əlyar Məmmədov:** "Bayramı çox pis keçirdik"

Həbsdə olan bəzi tanınmış siyasilərin ailələrinin Yeni ili necə qarşılamaları ilə maraqlandıq. Məlum oldu ki, onların əksəriyyəti bayram keçirməyiblər. Əlamətlər gün ərəfəsində öz doğmaları ilə həbsxanada görüşən, onların bayramlarını təbrik edən məhbus ailələri də var.

**Müsavat başqanının müavini Tofiq Yaqublunun qızı Nigar Yaqublu atası ilə bayram günlərində görüşə bilmədiyini söylədi:** "Görüşmək imkanımız olmadı, amma telefonla əlaqə saxlaya bildik. Əfv məsələsini biz çoxdan bağlamışıq. Ona görə də bizim üçün sürpriz əfv olmadı. Atamı buraxmayacaqlarını bilirdik. Yeni ili sıradan bir gün kimi keçirdik. Atam həbsdə, Nərgiz yox, necə Yeni il keçirə bilərik?"

**REAL sədri İlqar Məmmədovun həyat yoldaşı Vəfa Məmmədova bayram günündə onunla danışdığını bildirdi:** "Bayramdan bir gün öncə İlqarla görüşdüm. Dekabrın 31-də isə özü evə zəng vurmuşdu. Bizi, dostlarını və qohumlarını təbrik etdi. Şükür ki, İlqarın əhval-ruhiyyəsi yaxşıdır. O qədər yüksəkdir ki, bizə də müsbət təsir edir. Yeni ili evimizdə ailə və dostlarımızla birlikdə keçirdik. İnşallah, gələn il İlqar və digər siyasi məhbuslar bu bayramı evlərində ailələri ilə birlikdə qeyd edərlər".

**Müsavatçı gənclər Fərəc və Sirac Kərimli qardaşlarının atası Raqif Kərimli dekabrın 30-da övladları ilə görüşdüklərini qeyd etdi:** "Yeni il qabağı hər iki oğlumla görüşdük. Yemək apardıq. İmkan verdilər ki, hər ikisi ilə görüşək. Fərəcin görüş vaxtı idi, amma Siracla əvvəl görüşmüşdük. Bayram öncəsi yenə Siracla görüş verdilər. Demək olmaz ki, bayramı şən keçirdik. Çalışdıq ki, uşaqlara hiss etdirməyək Fərəc və Siracın yoxluğunu. Sadəcə, təqvim ili kimi keçirdik. Özlərinin vəziyyəti yaxşıdır. Bayram günü həbsxanada işıqlar sönmüşdü. Sizin də qəzetin təsiri ilə sonradan işıq problemi bərpa olundu. Fərəc bayramdan sonra da zəng vurmuşdu. Hər şey normaldır".

**NİDA-çı gənc Rəşadət Axundovun həyat yoldaşı Türkan Hüseynova xüsusi bir bayram keçirmədiklərini diqqətimizə çatdırdı:** "Yeni ildə evdə oturduq. Xüsusi bir bayram qeyd etmədik. Rəşadət zəng vurmuşdu, əhvalı normaldır".

**Digər NİDA-çı gənc Ömər Məmmədovun atası Əlyar Məmmədov yanvarın ikisində oğlu ilə görüşdüklərini bildirdi:** "Yeni ildə görüşə bilmədik. Amma bayramdan sonra görüşə bildik. Elə bir şikayəti yoxdur. Bayramı çox pis keçirdik. Gözləyirdik ki, əfvlə oğlum azad olunacaq. Amma yenə də onu azad etmədilər".

❑ **Cavanşir ABBASLI**



# Keçilməz hala düşən Məhəmməd Hadi küçəsi...

## Xətai rayonunda yollar bərbad vəziyyətdədir, sürücülər narazıdır



**Xətai rayonu, Məhəmməd Hadi küçəsi boyunca yollar qəzalı vəziyyətdədir. İllərdir ki, bu problem həmin ətrafda yaşayan əhalini və yolu oradan düşən sürücüləri cana yığıb. Yağış və kanalizasiya suları asfalt örtüyünü bərbad vəziyyətə salıb. Yaranan iri və dərin çalalar nəqliyyatın intensiv hərəkət etdiyi magistral yolda tez-tez tıxaclar yaradır.**

"Həzi Aslanov" metro stansiyası istiqamətindən başlayaraq, "Bizim Market" mağazasına kimi olan yol bərbad vəziyyətdədir.

"Yeni Müsavat" qəzetinin əməkdaşı adıçəkilən əraziyə baş çəkib və vəziyyətin şahidi olub. "Həzi Aslanov" metro stansiyasının yaxınlığındakı avtobus dayanacağında bir qarışıqlıq nəzərə çarpır. Nəqliyyatın hərəkəti məhdudlaşıb. Bütün bu problemin səbəbi isə sadaladığımız kimi, yollarda yaranan çalalardır. Məhəmməd Hadi küçəsindən üzü "Nargilə kafesi" istiqamətə gedən əsas yolda nəqliyyatın intensivliyi azalıb və nəticədə avtomobillər 100-150 metrlik məsafəni bir neçə dəqiqəyə getməli olurlar.

Yoldakı tıxacda hərəkət edə bilməyən bir neçə taksi sürücüsünün də problemlə bağlı fikirlərini öyrəndik.

**Anar Səlimov** adlı sürücü illərdir ki, bu yollarda əziyyət çəkdiyini dedi: "Bu yoldan həm avtobus sürücüləri, həm də sadə vətəndaşlar istifadə edir. Bu qəsəbələrə və şəhərə gedən əsas yoldur. Bir neçə il əvvəl icra nümayəndələri asfaltda bir qədər üzləmə işləri apardılar. Lakin yenidən bərbad vəziyyətə düşdü. Ümumiyyətlə, yola nəzarət yoxdur. Ağır tonnajlı yük maşınlarının hərəkəti və yolda yığılıb qalan yağış suları asfalt örtüyünü keçilməz hala salıb. Payız-qış aylarında isə çalalar daha da dərinləşir. Günlərlə su gölməçə halında çalalarda qalır və asfaltı daha da yararsız hala salır. Bu problemlə heç bir aidiyyəti orqan maraqlanmır".

Bu yolla "Həzi Aslanov" metro stansiyasından müxtəlif istiqamətlərə onlarla marşrut hərəkət edir ki, yolda yaranan çalaların təsirindən avtobuslarda nasazlıq yaranır. 51,12, 96, 57 nömrəli marşrutlar hər gün bu çalalardan keçməli olur. 51 nömrəli marşrutun sürücüsü **Natiq Məmmədov** deyir ki, asfalt örtüyünün bərbad vəziyyətdə olması onun büdcəsinə mənfi təsir edir: "Yolların bu vəziyyətdə olması təkcə sərnişinləri deyil, biz sürücüləri də maddi baxımdan ziyana salır. Sürücüsü olduğum 51 nömrəli avtobusda tez-tez nasazlıq yaranır. Həftədə ən azı 1 dəfə usta baxışı keçməlidir. Bu isə o deməkdir ki, hər dəfə təmir pulu verirəm. Bütün xərcləri isə özüm qarşılayıram".

**Yollardakı problemlə bağlı ətrafda olan sərnişinlərlə həmsöhbət olduq. Sərnişinlər yolların qəzalı vəziyyətdə olmasının səbəbini Xətai Rayon İcra Hakimiyyətinin fəaliyyətini yetərincə icra etməməsində görürlər:** "Hər gün axşam saatlarında sərnişin çoxluğu yaranır, nəticədə marşrutlarda sıxlıq yaranır. Sərnişinlər həmin çalalarda atlanıb-düşür. Yolda işıq olmaması isə qəza şəraiti yaradır. Dəfələrlə iri çalaları keçərkən sərnişin dolu avtobus aşma təhlükəsi ilə üzləşib. Bu problemləri icra nümayəndələri yaxşı bilir və görür. Lakin heç kim ən azından asfaltda yaranan dərin çalaları bərpa etmir. Xətai Rayon İcra Hakimiyyətinin bir "KamAZ" daşı yoxdur ki, çalaları doldursun..."

Qeyd edək ki, Xətai Rayon İcra Hakimiyyəti ötən il Məhəmməd Hadi küçəsinin təqribən 4-5 kilometrlik yol örtüyünü, Fəhlə prospektinə kimi olan hissəsini təmir edib və bir neçə gün öncə istifadəyə verib.

❑ **Məğrur SALMANOV**
**Fotolar müəllifindir**

# Bakıda valyuta ajiotajı səngiyir

## Bəzi məntəqələr dolları ucuzlaşdırdı: 1.72-dən 1.65-ə...

**Bakıda valyutadəyişmə məntəqələrində dollar ucuzlaşmaqda davam edir. Yanvarın 4-də paytaxt Bakıda valyutadəyişmə məntəqələrində dollar 1.65 manata alıcılara təklif edilib.**

Musavat.com xəbər verir ki, dolların satış qiyməti ucuzlaşsa da, alış qiyməti 1 qəpik bahalaşıb. Belə ki, yanvarın 3-də "exchange"lər dolları 1.60 manata alırdısa, yanvarın 4-də bu qiymət 1.61 manat olub. Yanvarın 3-də isə dolların satış qiyməti 1.68 manat idi. Dekabrın 31 və yanvarın 1-də dolların satış qiyməti 1.72 manat idi.

Doların qiymətinin cüzi ucuzlaşmasının səbəbi son bir neçə gün ərzində, əsasən də bayram günlərində dollara tələbatın həddən artıq aşağı düşməsi olub. Bir neçə valyutadəyişmə məntəqəsinin qarşısında müşahidə apararkən də müştəri qıtlığını müşahidə etdik. Dekabrın 21-də baş verən devalvasiyadan sonra yaranan "dollar ajiotajı" artıq səngiyib.

28 May küçəsindəki "exchange"lərdə dolların satış qiyməti də 1.65-1.66 manatadır. Bir gün əvvəl isə bu ünvanda dolların satış qiyməti 1.68 manat idi.







**"Nefçilər" metro stansiyasının çıxışındakı valyutadəyişmə məntəqələrindən birinin əməkdaşı olan Zaur Quliyev deyir ki, bayram günlərindəki müştəri ümumi sayı bayramdan bir gün əvvəlki müştərilərin sayına bərabər olub:** "Bayramdan əvvəl müştəri o qədər çox idi ki, günün ikinci yarısından sonra obyekti bağlamaq məcburiyyətində qalırdıq. Çünki dollar satılıb qurtarırdı. Ancaq indi elə deyil, dollar almaq üçün nadir hallarda müraciət edən olur. İndi daha çox bayramdan qabaq dollar alanlar gündəlik xərclik üçün dollar xırdalayırlar. Dollara tələbatın azalması qiymətə də təsir edib. Yanvarın 3-də 1.68 manat idi. Bayramdan əvvəl də 1.72 manat idi".

Bayram günlərində "qara bazar"da dolların qiymətinin süni şəkildə bahalaşacağı gözlənilirdi. Çünki dekabrın 21-dəki devalvasiyadan sonra Mərkəzi Bankın işləmədiyi şənbə və bazar günlərində dollar "qara bazar"da 2,05 manatadək süni şəkildə bahalaşmışdı. Yeni il bayramı ərəfəsində də belə olacağı gözlənilirdi.

Lakin bayram günlərində "exchange"lərdə ciddi yoxlamalar aparılıb. Bu barədə musavat.com-a Bakıda fəaliyyət göstərən valyutadəyişmə məntəqələrində çalışan şəxslər məlumat verib. Məlumatda bildirilir ki, bayram günlərində dolların süni şəkildə bahalaşmaması üçün demək olar ki, hər gün reydlər keçirilib. Və valyutadəyişmə məntəqələrində dolların bahalaşmaması ciddi nəzarətdə saxlanılıb. Bu yoxlamalar və dollara olan tələbatın azalması ucuzlaşmaya səbəb olub.

Qeyd edək ki, Mərkəzi Bank dekabrın 30-da yaydığı məlumatda bildirirdi ki, yanvarın 5-nə dollar 1.561 manat olacaq.

❑ **İlkin MURADOV**
**Fotolar müəllifindir**




# Balakəndə zavod partladı; 1 ölü, 2 yaralı

**Balakəndə zavodda baş vermiş partlayış zamanı ölən və yaralanan şəxslərin adları məlum olub. APA-nın məlumatına görə, "Azəryem Sənaye" MMC-yə məxsus zavodun qazanxanasında baş verən partlayış nəticəsində orada işləyən, Qullar kənd sakini, 1990-cı il təvəllüdlü Elçin Əlimәmməd oğlu Əliyev hadisə yerində keçinib.**

Digər işçilər - Qullar kənd sakini, 1990-cı il təvəllüdlü Novruz Məhəmməd oğlu Nastakalov və Qazma kənd sakini, 1982-ci il təvəllüdlü Anar Süleyman oğlu Bozurov isə xəsarət alıblar. Onlar Balakən Rayon Mərkəzi Xəstəxanasına yerləşdiriliblər.

Faktla bağlı Balakən Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 162.2-ci (əmək mühafizə qaydalarını pozma, ehtiyatsızlıqdan insan ölümünə səbəb olduqda) və 223.2-ci (partlayış təhlükəli obyektlərdə təhlükəsizlik qaydalarını pozma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanıb.

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

Əlaqə nömrəsi (050) 264 49 99

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

- **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
- **Cinsi marağın** və **cinsi aktların** azalması
- **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
- **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
- **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
- **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
- **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
- **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
- Əvvəldən **xarici cinsi üzvün** balaca olması
- **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
- **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
- **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
- **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
- Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
- **Yuxusuzluq və yuxu pozuntuları**
- Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
- Sidik aktlarının çətinlikləri və tutulmaları
- Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
- **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
- **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
- **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
- **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
- Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



# Bakı sakini dollar aldı və oğruların qurbanına çevrildi

**Yeni ilin ilk günlərində Bakıda mənzildən külli miqdarda oğurluq edilib. Səbayel Rayon Polis İdarəsindən virtualaz.org-a verilən məlumata görə, naməlum şəxslər açar seçmə yolu ilə Ağaşirin Əkbərovun A.Abbaszadə küçəsi, ev 17-dəki mənzilinə girərək, oradan 1100 manat, 45 900 dollar və 1100 avro aparıblar. Zərərçəkən deyib ki, qarətdən bir neçə gün əvvəl əlindəki milli valyutanı dollara çeviribmiş.**

Oğurluq yanvarın 1-3-ü arası, mənzil sahibi evdə olmayanda baş verib. Hələlik oğurluğun kim və ya kimlər tərəfindən törədildiyi məlum deyil.

Fakla bağlı araşdırma davam etdirilir.

# Sabunçuda ilin ən böyük mənzil oğurluğu



**Sabunçu rayonunda ilin ən böyük mənzil oğurluğu qeydə alınıb. Sabunçu Rayon Polis İdarəsindən APA TV - yə verilən məlumata görə, Sabunçu rayonunda yaşayan Vidadi Hüseynovun evindən pəncərədən girmək yolu ilə məişət əşyaları və dəmir seyf oğurlanıb. Oğrular seyfin qapısını sındıraraq 80000 manat dəyərində qızıl əşyaları götürüblər.**

Sabunçu RPİ 13-cü PB əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətmiş Bakı şəhər sakinləri Yevgeniy Şepiya və Xalid Gülməmmədov tutulublar. Qeyd edək ki, mənzil yeni təmirdən çıxıbmış. Zərərçəkənin polis idarəsində verdiyi məlumata görə, saxlanılan şəxslər ona 100.000 manatdan çox maddi ziyan vurublar.

# «Sahil» metrosunun çıxışında qətl törədilib



**Bakının mərkəzində qətl törədilib. Səbayel Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə dünən səhər saatlarında "Sahil" metrosunun çıxışında qeydə alınıb. 25-30 yaşlarında kişi naməlum şəxs və ya şəxslər tərəfindən bıçaqlanaraq qətlə yetirilib. Hadisə yerinə Səbayel Rayon Prokurorluğunun müstəntiqləri və polis əməkdaşları çıxıb.**

Qətlə yetirilən şəxsin və hadisəni törədənlərin kimliyinin müəyyənləşdirilməsi istiqamətində tədbirlər davam etdirilir.

# Toy karvanında avtoxuliqanlıq edənlər 20 sutkalıq həbs edilib

**Gəncədə avtoxuliqanlıq edən bir neçə nəfər saxlanılıb. APA-nın qərb bürosunun məlumatına görə, Gəncə Şəhər Baş Polis İdarəsi Dövlət Yol Polisi şöbəsi şəhərin müxtəlif ərazilərində avtoxuliqanlıq edən gəncləri müəyyən edərək məsuliyyətə cəlb edib.**

DYP əməkdaşları toy karvanında kəskin manevrlər edən avtomobilləri təhlükəsiz şəhər kameralarının görüntülərinə əsasən müəyyən edib. "VAZ 2107" markalı avtomobilləri idarə edən Kənan Cəfərov və Sarı Məhərrəmov məhkəmənin qərarı ilə 20 sutkalıq həbs edilib, 1 il müddətinə sürücülük hüququndan məhrum olunublar. Bunlardan başqa, "Mercedes" markalı avtomobillə avtoxuliqanlıq edən azyaşlı da saxlanılıb. Ona 600 manat cərimə kəsilib. Hər üç avtomobil cərimə meydançasına aparılıb.




# DGK: «Gömrük-keçid məntəqələrində AH1N1 virusu qeydə alınmayıb»

**Son günlər Türkiyənin Adana vilayətində AH1N1 (donuz qripi) virusuna yoluxduğu ehtimal olunan 3 nəfərin dünyasını dəyişməsi barədə məlumat yayılıb. Dövlət Gömrük Komitəsi mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Dövlət Gömrük Komitəsi vətəndaşların diqqətinə çatdıraraq bildirir ki, qeyd olunan AH1N1 virusu Azərbaycanın sərhəd gömrük-keçid məntəqələrində qeydə alınmayıb.**

Dövlət Gömrük Komitəsi nəzərə çatdırır ki, hər hansı potensial təhlükəli halın vaxtında müəyyən edilməsi və qarşısının alınması üçün bir sıra vacib və profilaktik tədbirlər davamlı surətdə aparılır, ümumi vəziyyət nəzarət altındadır. Dövlət Gömrük Komitəsi və Səhiyyə Nazirliyinin müvafiq qurumları qarşılıqlı əlaqədədir, sərhəd gömrük-keçid məntəqələrində zəruri olan dezinfeksiya və digər əks-epidemik tədbirlər həyata keçirilir. Gömrük-keçid məntəqələrində quraşdırılmış yüksək hərarəti müəyyən edən termovizorlar vasitəsilə vəziyyətə nəzarət olunur. Ölkəyə gələn şəxslər üzərində vizual müşahidə aparılır, yüksək hərarəti və xəstəliyə yoluxma əlamətləri aşkar edilərsə, müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

# Bakıda polis yol qəzasında öldü

**Bakının Nizami rayonu ərazisində baş verən yol qəzası nəticəsində polis əməkdaşı dünyasını dəyişib. Virtualaz.org-a bunu Nizami Rayon Polis İdarəsindən bildiriblər.**

Yanvarın 4-nə keçən gecə, saat 00.50-də Füzuli küçəsindəki 69 saylı binanın qarşısında Seyran Seyidovun idarə etdiyi «Kia Cadenza» Nəsimi Rayon Mühafizə İdarəsinə məxsus «Volswagen Polo» markalı xidməti maşınla toqquşub.

Nəticədə «Volswagen Polo»nun sürücüsü, polis serjantı, 1984-cü il təvəllüdlü Şirinov İsa Süleyman oğlu hadisə yerində keçinib, onun sərnişini-1982-ci il təvəllüdlü Ələkbərov Bəhram Əzizağa oğlu isə beyin-kəllə xəsarətləri ilə Kliniki Tibbi Mərkəzə yerləşdirilib.

Hazırda qəzanın təfərrüatları araşdırılır.

# Lənkəranda maşın motosikletlə toqquşub, ölən və xəsarət alan var

**Lənkəranda ölümlə nəticələnən ağır yol-nəqliyyat hadisəsi baş verib. APA-nın cənub bürosunun məlumatına görə, hadisə yanvarın 4-də saat 13.30 radələrində Lənkəran-Boradigah şossesinin rayonun Separadi kəndindən keçən hissəsində qeydə alınıb.**

Masallı rayon sakininin idarə etdiyi "VAZ-21015" markalı minik avtomobili Lənkəranın Separadi kənd sakini Ayaz Salayevin idarə etdiyi "Muravey" markalı motosikletlə toqquşub. Güclü zərbədən motosikletin sürücüsü aldığı xəsarətlərdən hadisə yerindəcə dünyasını dəyişib. Motosikletin qoşqu yerində əyləşmiş sürücünün yaxın qohumu Həmzə Mütəllimov isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. O, Lənkəran Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib.

Faktla bağlı araşdırmalara başlanıb.

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

# Bakının mərkəzindəki qumarxana...

## "37- repressiya", "85- muxtar respublika"...

**Bakının müxtəlif yerlərində açıq şəkildə, günün istənilən saatında qumar oynanılır. Loto-qumar oyununun təşkil olunduğu yerlər haqda bir neçə dəfə məlumat vermişik. Bir müddət əvvəl də "Həzi Aslanov" metrosunun yaxınlığındakı loto-qumar məkanından geniş reportaj təqdim etmişdik.**

Musavat.com-un əməkdaşı bu dəfə loto-qumarın təşkil olunduğu başqa bir ünvanda olub. Bu məkan paytaxtın mərkəzində, 28 May küçəsində, Səməd Vurğun bağının yanındadır. "Cash rich club" adlanan və yeni açılan bu məkanda saat 15:00-dan etibarən başlayan oyun səhər saatlarınadək davam edir.

Məlumdur ki, bu cür məkanların öz müştəriləri var. Belə obyektlər açılanda həmin müştərilər bir-birilərindən soraqlaşaraq həmin ünvanı gedib tapırlar. Məkanın qarşısından keçənlərin diqqətini isə mikrofon vasitəsilə torbadan çıxan daşların uca səslə deyilməsidir. Elə biz də haqqında danışdığımız məkanın qarşısından keçərkən "nömrə 55", "ləzzətli daş- 88", "44- bir-bir", "65 və davolna" kimi səslər bizim də diqqətimizi çəkdi.

Əvvəlcədən bu cür məkanlar haqda məlumatımız olduğundan söhbətin nədən getdiyini anladıq.

Obyektdə çay, kofe, pivə, sərinləşdirici içkilər də verilir. Lakin buranın əsas müştəriləri təbii ki, loto-qumar oynamağa gələnlərdir. Biz də məkana daxil olub, masalardan birində əyləşirik. Xanım işçilər bizə loto kartları təklif edirlər. Bütün belə məkanlarda olduğu kimi burada da kartın birinin qiyməti 1 manatdır. İki kart alaraq biz də oyuna başlayırıq.

Elanlardan da görünür ki, oyunlar səhər saatlarınadək davam edir. Gecə saat 02-:00-da "cek pot" və pulsuz oyunların oynanılması ilə bağlı məkanın divarlarında elanlar görürük. Hər masada oyunun şərtlərini izah edən kağızlar var. Kartları paylayan işçilərdən də oyun haqda əlavə məlumatlar öyrənmək mümkündür.

Hər oyuna qoyulan uduşun məbləği oyunda iştirak edənlərin sayına görə dəyişir. Masalarda kart başına yığılan pullardan müəyyən faiz tutulur və qalan hissəsi uduşa qoyulur. Oyunçular çoxaldıqca uduş da, qazanılan faiz də çoxalır.

Diqqətimizi çəkən məkanda xeyli sayda işçinin olmasıdır. 3-4 nəfər növbə ilə torbadan daşları çıxarır, 6-7 nəfər xanım işçi masalara kart paylayır, bir neçə nəfər məkanda quraşdırılan monitorlara nəzarət edir, bir neçə nəfər də çay paylayır və müştərilərə xidmət edir.

Məkana oyunçu axını əsasən axşam saatlarına, iş saatlarından sonraya təsadüf edir. 20-dən çox masanın olduğu məkan saat 19:00-dan sonra tamamilə dolur.

Qayıdaq oyunumuza. Oyun zamanı torbadan daş çıxaranlar həyəcanı artırdıqlarını, oyuna rəng qatdıqlarını düşünərək çıxan rəqəmləri rayon seriyalarına və başqa mənalarına görə şərh edirlər. Məsələn: "41- müharibə başladı", "85- muxtar respublika", "37- repressiya", "50 - ömrün yarısı", "88 - ləzzətli daş", "21- Gədəbəy" və s.

Loto oyununun qalibi olmaq üçün aldığınız kartın ilk sırasında olan 6 nömrə torbadan çıxan daşlarla uyğun gəlməlidir. İlk sıranı dolduran iştirakçı qalib elan olunur.

İki kart seçib oyuna başladıqdan sonra 6 oyunun sonunda artıq 12 manat uduzmuşuq. Uduzanlara əsas təsəlli də məkanda çayın pulsuz verilməsidir. Pulsuz çayımızı içib 7-ci oyuna başlayandan sonra şans bizim də üzümüzə gülür. Uduşu 26 manat olan oyunda 89 rəqəminin çıxması ilə qalib oluruq. Beləcə, itirdiyimiz 14 manatdan əlavə 12 manat qazancımız olur...

Oyun ərəfəsində bəzi masalar bir neçə dəfə dolub boşalır. Uduzanlar məkanı tərk edir və onları yenilər əvəz edir. Qalib gələnlər isə kartlarının sayını çoxaldaraq şanslarını artırmağa çalışırlar.

Loto oynayarkən diqqətimizi çəkən əsas məqamlardan biri bağlı qapı arxasından fasilələrlə çıxan xeyli sayda xanımlar idi. Bu xanımlar məkandakı ayrı bir otağa girir, müəyyən təlimatlar aldıqdan sonra məkanı tərk edirdilər. Müəyyən vaxtdan sonra isə yenə məkana qayıdırlar. Gördüklərimizdən məlum olur ki, bu xanımlar içəridəki otaqda hazırlanan loto kağızlarını müəyyən məkanlarda satmağa aparırlar. Xanımların əllərində xeyli sayda loto kağızları apardığının şahidi olsaq da bu oyunun necə təşkil olunduğunu öyrənə bilmirik.

Hava qaraldıqca məkanın müştərilərinin sayı çoxalır. Biz də qazandığımız 12 manatı uduzduqdan sonra məkanı tərk edirik. Loto-qumarxananın qarşısında bir neçə dəqiqə müşahidə apararkən görürük ki, ətrafa yayılan rəqəmlərin səsi yaxınlıqdan keçənlərin diqqətini mütləq çəkir. Hər kəs bir anlıq dayanaraq məkana baxmağa başlayır. Yoluna davam edən də olur, içəriyə daxil olub baş verənlərin yaxından şahidi olanlar da, ilk dəfə də olsa loto-qumarın iştirakçısı olanlar da.

Bəs görəsən, qanunsuz olaraq Bakının mərkəzində rahatlıqla qumarxana açmaq, işlətmək necə mümkün olur?

Bizə yalnız bir məsələni xatırlatmaq qalır:

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 244 nöqtə 1-ci bəndinə əsasən, qumarxana təşkil etmə və saxlamaya görə 2 ilədək islah işləri və ya 3 ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur.

❑ **İlkin MURADOV**









# Bayram günlərində Azərbaycana turist gəldimi...

## **Rəşad Həsənov:** "Bahalıq, qiymətlərin xidmətin keyfiyyətinə uyğun olmaması turizmin inkişafına ciddi əngəldir"

**Yeni il ərəfəsində xarici ölkələrə gedənlərlə yanaşı, Azərbaycanın müxtəlif bölgələrinə üz tutanlar kifayət qədər oldu. Ancaq Azərbaycana gələn xarici turistlər isə demək olar ki, yox səviyyəsində idi.**

Şəki Turizm İnformasiya Mərkəzinin direktoru Nəsib İmaməliyev "Yeni Müsavat"a açıqlamasında Yeni ildə Şəkiyə gələn turistlərin sayının keçən illə müqayisədə az olduğunu dedi: "Keçən illə müqayisədə bu il turist az oldu. Bu bəlkə də hava şəraiti ilə əlaqədardır. Hava çox soyuq və qarlı idi. Bu cür hava şəraiti də turizmə təsir etdi. Xarici turistlər barmaqla sayılacaq qədər idi - təxminən 15 nəfər olardı. Ancaq yerli turistlər vardı".

Qəbələdə isə 3 minə yaxın turist olub. Ancaq burada da turistlərin çoxu yerli turist olub. Qəbələ rayon mədəniyyət və turizm şöbəsinin müdiri Nargilə Qafarova AZƏRTAC-a müsahibəsində bayram günlərində rayona gələnlər arasında yerli turistlərin çoxluq təşkil etdiyini bildirib: "Rayona gələn əcnəbi turistlər arasında da ötən ilin müvafiq dövrü ilə müqayisədə artım var. 2015-ci ildə Qəbələ rayonuna gələn xarici və yerli turistlərin sayı 50 min 200 nəfər olub".

N.Qafarova Qəbələdə "Tufandağ" Qış-Yay İstirahət Kompleksində kanat və xizəkçilik mərkəzinin, Stend və Ox Atıcılığı Kompleksinin, "Qəbələnd" İstirahət və Əyləncə Mərkəzinin turistlərin marağını daha çox cəlb etdiyini də vurğulayıb.

Göründüyü kimi, bayram günlərini Azərbaycanda keçirmək istəyən turistlərin sayı hər il olduğu kimi bu il də istənilən və gözlənilən səviyyədə olmayıb.

Maraqlıdır, xarici turistlər niyə ölkəmizə maraq göstərmir? Bahalıq, xidmətin keyfiyyətsizliyi, yoxsa tamamilə başqa səbəblər var?

Təhlillər göstərir ki, Azərbaycana turist axınının zəifliyi turizm mərkəzlərindəki qiymətlərin digər ölkələrlə müqayisədə yüksək olması ilə əlaqədardır. İş ondadır ki, turistlər Cənubi Qafqaz ölkələri sırasında ən çox Azərbaycanda pul xərcləməli olurlar.



**İqtisadçı ekspert Rəşad Həsənov isə bunun fundamental səbəbləri olduğunu bildirdi:** "Birincisi, uzun müddətdir ki, davam edən bahalı xidmətlər, həmçinin bu xidmətlərin keyfiyyətinin qiymətə uyğun olmaması tendensiyası müşahidə olunub. Bu, uzunmüddətli dövrdə xüsusilə də Azərbaycana baş çəkmiş xarici turistlərdə xidmət sektorunun zəif inkişafı və qiymətlərin səmərəsizliyi fikri yaranıb. Eyni zamanda Azərbaycanda qış turizmi ilə bağlı əvvəlki dövrlərdə ümumiyyətlə belə bir struktur mövcud deyildi. Son dövrlərdə bu istiqamətdə müəyyən addımlar atılıb və qış turizmi günlərinin sayı əvvəlki illərlə müqayisədə artsa da, burdakı qiymətlər kifayət qədər yüksək səviyyədə formalaşıb. Bu, qonşu dövlətlərlə, Gürcüstan, Türkiyə, Rusiya kimi ölkələrlə müqayisədə regiona səfər edən turistlərin Azərbaycana gəlməsini əngəlləyən əsas səbəblərdən biri idi. Digər bir səbəb isə odur ki, Azərbaycanda xidmət sektorunun keyfiyyəti əsas problemlərdən biri olub. Uzun müddətli dövr üçün Azərbaycanda bu istiqamətdə mütəxəssis çatışmazlığı əsas arqumentlərdən biri hesab edilirdi. Sonradan mütəxəssis çatışmazlığı məsələsini həll etmək üçün turizm universitetinin fəaliyyətə başlamasına, xarici peşəkarların, mütəxəssislərin ölkəyə dəvət edilməsinə baxmayaraq bu problem həll edilmədi. Çünki idarəetmədə, xüsusən də turizm müəssisələrinin idarə edilməsində əsas rol oynayan sahibkarların kiçik dövriyyə ilə daha böyük gəlir götürmək prinsipləri, hətta xarici mütəxəssislərin belə bu istiqamətdə müəyyən nailiyyətlər əldə etməsini əngəlləyən əsas səbəblərdən idi".

**R. Həsənov sektorun daha effektli siyasəti nəticəsində rəqabət qabiliyyətinin yüksəldilməsinin mümkün olduğunu dedi:** "Dekabr ayında baş verən devalvasiya bu xidmətlərin qiymətlərini, rəqabətliyini digər ölkələrlə müqayisədə nisbətən artırdı. Amma burda qısa müddət olması, eyni zamanda bu müddət çərçivəsində xüsusilə qış tətili ilə bağlı turistlərin əvvəlcədən səfərlərini planlaşdırması, Azərbaycanın seçilməməsinə səbəb oldu. Düşünürəm ki, hazırda turizm sektoru daha effektli siyasət aparsa, manatın hazırkı məzənnəsi ilə turizm sektorunun rəqabət qabiliyyətini yüksəldə bilər".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
Son səhifə
N 156 (6184) 21 iyul 2015



## Baş nazirin arvadı Yeni ili polis bölməsində qarşıladı

İsrailin baş naziri Benyamin Netanyahunun həyat yoldaşı Sara Netanyahu yeni il gecəsini polis idarəsində keçirməli olub. Sara Netanyahu korrupsiya faktı ilə bağlı ittiham edilərək 5 saata yaxın sorğu-sual edilib. Belə ki, xanım Netanyahu dövlət büdcəsindən şəxsi məqsədləri üçün istifadə etməkdə günahlandırılır. Polisin məlumatına əsasən, Sara Netanyahu baş nazirin iqamətgahı üçün alınan mebelləri daha sonra Kesariyədə yerləşən bağ evinə aparıb. Ordakı köhnə mebelləri Benyamin Netanyahunun iqamətgahına göndərib.

Baş nazirin xanımı həmçinin həyat yoldaşının rəhbərlik etdiyi siyasi partiyanın üzvünü elektrik kimi işlədərək onun əmək haqqını da dövlət büdcəsindən ödəyib. Bundan başqa, Sara Netanyahu dövlət vəsaitindən dünyasını dəyişən atası üçün xərcləməkdə və saxta çeklər yazmaqda şübhəli bilinir. İsrailin baş prokurorluğu 2015-ci ilin əvvəlindən dövlət büdcəsindən sui-istifadələrlə bağlı araşdırmalara başlayıb. Elə bu yaxınlarda İsrail Ali Məhkəməsi qalmaqallı korrupsiya işi ilə bağlı sabiq baş nazir Ehud Barak haqda həbs qərarı çıxarıb. Əvvəllər də İsrail mətbuatı dəfələrlə Netanyahu ailəsini dövlət vəsaitindən şəxsi məqsədlərlə istifadə etməkdə günahlandırıb.

# 86 yaşında dağa qalxdı

Angela Vorobyeva adlı 86 yaşlı rus qadın Afrikanın ən yüksək dağına - sönmüş vulkanı olan 5895 metr yüksəklikdəki Klimancaro dağına dırmanaraq "Ginnesin Rekordlar kitabı"na düşüb. Dağa qalxmağın olduqca çətin olduğunu deyən Vorobyeva "İlk gün meşələrin içindən keçdik. İkinci gün qulaqlarım cingildəməyə başladı. Üçüncü gün danışmağa çalışdığım zaman qulaqlarım ağrıyırdı. Heç bir şey yeyə bilmirdim. Sadəcə, çay içə bilirdim" deyib.




# Bir il fərqlə doğulan əkizlər

**ABŞ-da əkiz körpələr müxtəlif illərdə doğulub. Belə bir maraqlı olay Yeni il gecəsi qeydə alınıb. Kaliforniyada hamilə qadın bayram günü doğuş üçün xəstəxanaya gətirilib. San Diyeqo xəstəxanasında əkiz körpələrini dünyaya gətirib. Körpələrdən biri oğlan, digəri isə qız olub. Helin adlandırılan qız 31 dekabr 2015-ci ildə saat 23:59-da doğulub. Qardaşı Luis isə ondan 3 dəqiqə sonra dünyaya gözlərini açıb. Bu isə 2016-cı il saat 00:02-yə təsadüf edib. Bununla da onlardan biri ilin son, digəri isə ilk körpəsi adını qazanıb.**

3 dəqiqə fərqlə fərqli illərdə doğulan körpələrin fotoları bütün dünyada yayılıb. Qısa müddət ərzində körpələrin fotosunu minlərlə insan bəyənib və paylaşıb. Onlardan birinin çəkisi 2, digəri isə 2,5 kq olub. Əkizlərin İzabella adında bir bacıları da var. Uşaqların valideynləri körpələrin ad günlərinin eyni gündə qeyd ediləcəyini deyib. Doğuşa yardım edən 34 illik tibb bacısı da belə bir hadisə ilə ilk dəfə üzləşdiyini deyib. Hazırda ana və körpələrin vəziyyəti stabildir.

Maraqlısı odur ki, bu, bayram günü baş verən ilk belə hadisə olmayıb. Kaliforniyanın Venture şəhərində də əkizlər bir dəqiqə fərqlə fərqli illərdə dünyaya gəliblər. Körpələr vaxtından bir ay öncə doğulublar.





## Selfi oğruların başına bəla oldu

**ABŞ-ın Pasifik-Qrouv şəhərində oğrunun çəkdirdiyi selfi başına bəla olub. 18 yaşlı Viktor Almans Martines adlı oğrunun qurbanlarından biri ilə hadisə yerində çəkdirdiyi selfi polisin işinə yarayıb. Belə ki, silahlı basqın və insan oğurluğunda təqsirli bilinərək, axtarışda olan gəncin tutulmasına təkcə soyduğu qızla çəkdiyi selfi deyil, eyni zamanda onunla "Snapcahtda"kı yazışmaları kömək edib.**

Polisin məlumatına görə, axtarışda olan gənc iki yoldaşı ilə birlikdə sakinlərin avtomobillərinə silahlı basqınlar təşkil edərək onları soymaqla məşğul olub. Uzun müddət axtarışda olan gəncləri çəkdirdikləri selfilər ortalığa çıxanadək tapmaq mümkün olmayıb.

Bənzər hadisə Ukraynanın paytaxtı Kiyevdə baş verib. Klubların birindən müştərilərin telefonlarını oğurlayan qızlara oğurladıqları telefonla selfi çəkdirmək baha başa gəlib. Belə ki, telefonla "Google"nin sinxronlaşdırılması selfinin telefonun əsil sahibinə göndərilməsi ilə nəticələnib. Bununla da polis telefon oğrularını fotoşəkil vasitəsilə taparaq həbs edib.




**QOÇ** - Çoxdan görüşmədiyiniz adamlarla rastlaşa bilərsiniz. Amma çalışın ki, onlara giley-güzardan yox, sevindirici məqamlardan danışasınız. İndi problemi danışmaqla həll etmirlər. Ümumiyyətlə, bu gün müdrik olun.

**BUĞA** - Qarşınızda ayın ən uğurlu günlərindən biri durur. Bu səbəbdən də verilmiş imkanlardan istifadə edin. Günün ilk yarısında qazanmaq ehtimalınız da var. Hər hansı düşmənçilikdən çəkinin.

**ƏKİZLƏR** - Təxminən saat 15-ə qədər ümumi ovqatınızda gerginlik müşahidə oluna bilər. Bu səbəbdən də həmin ərəfədə riskli işlərin həllini təxirə salın. Sonrakı müddət qismən sakit keçəcək. Güzəştə getməyi bacarın.

**XƏRÇƏNG** - Əgər fəaliyyətlə bağlı ciddi bir işiniz yoxdursa, günün əsas hissəsini gəzinti və qonaqlıqlarda keçirin. Sevən aşiqlərsə mütləq görüşə çıxmağa çalışmalıdır. Daxili gücünüzə inamınızı azaltmayın.

**ŞİR** - Ulduzların düzümü şəxsi büdcənizi artırmaq üçün geniş imkanlarının olduğunu bəyan edir. Əlalxüsus da çoxdan bəri ala bilmədiyiniz məbləği əldə etmək üçün fəallaşmalısınız. Axşama maraqlı görüşləriniz mümkündür.

**QIZ** - Son zamanlar az qala hamı fikirlərinizə qarşı çıxır. Lakin narahatçılığa heç bir əsas yoxdur. Çünki nahardan sonra hərəkətlərinizdə əsasən haqlı olduğunuzu çoxları hiss edəcək. Yeni ilə yeni güclə başlayın.

**TƏRƏZİ** - Qarşınızda duran bu təqvim sizin üçün çox uğurlu keçməlidir. İstər əməkdaşlıq zəminində və işgüzar sövdələşmələrdə, istərsə də qarşılıqlı münasibətlərdə hər şey ürəyinizcə olacaq.

**ƏQRƏB** - Dünən axşamdan mənfi enerjili Ay bürcünüzdə qərar tutsa da, rastlaşdığınız hadisələr ovqatınızın mənfi müstəviyə yönəlməsinə imkan verməyəcək. Yanvarın bütün planlarını məhz bu gün tutmalısınız.

**OXATAN**- Əsas gücünüzü sevgi amilinə yönəldin. Çünki bu gün yeganə rahatlığı məhəbbətdə tapacaqsınız. Ünsiyyətdə olduğunuz digər insanlarla isə ciddi mübahisələriniz gözlənilir, xüsusən də həmkarlarınızla.

**OĞLAQ** - Səhhətinizi kontrolda saxlasanız, ixtiyarınızda olan bu təqvimdən razı qalacaqsınız. Fəaliyyət zəminində isə bir neçə yeniliyin şahidi olacaqsınız. Yeni təkliflərlə razılaşın, təşəbbüskar olun.

**SUTÖKƏN** - Bəri başdan yeni və sevindirici xəbərlərə hazır olun. Yaxın ünsiyyətdə olduğunuz şəxslərlə münasibətləri mülayimləşdirin. Dara düşən simsarlarınıza, dostlarınıza yardım əlinizi uzadın.

**BALIQLAR** - Tanrının qüdrətini duymaq üçün gözəl vaxtdır. Tövbə etmək, nəzir vermək, xeyirxahlıq etmək, yaxud da sadəcə, ziyarətə getmək əsəblərinizi xeyli sakitləşdirə bilər. Bundan maksimum yararlanın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Oğlunu üzərində oturaraq öldürdü

Amerikada Yeni il axşamını ailəsi ilə keçirən 123 kiloluq ata 6 yaşlı oğlunun üzərində oturduğu üçün uşaq həyatını itirib. Faciəvi hadisə Amerikanın Florida ştatında baş verib. Məlumatlara görə, James Derman adlı kişi 6 və 7 yaşlı uşaqlarından yatmalarını istəyib. Uşaqlar yatmaq istəmədikdə o, uşaqlardan üzlərini divara çevirərək ayaqda durmalarını tələb edib. 6 yaşlı uşaq isə ata-anasının oynadığı oyunu izləməyə davam edib. Uşağa əsəbiləşən 123 yaşlı Derman onu divana sıxaraq üzərində oturub. Uşağın ağlamasına baxmayaraq onun üzərində oturmağa davam edib. Bir müddət sonra 6 yaşlı uşağın səsi kəsilib. Uzun müddət sonra divandan qalxan J.Derman uşağın öldüyünü başa düşüb. Təcili tibbi yardıma xəbər verən cani ata polislər tərəfindən saxlanılıb. O, polislərə verdiyi ifadədə uşağın öləcəyini düşünmədiyini deyib.




**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.300

Maraqlısı odur ki, bu, bayram günü baş verən ilk belə hadisə olmayıb. Kaliforniyanın Venture şəhərində də əkizlər bir dəqiqə fərqlə fərqli illərdə dünyaya gəliblər. Körpələr vaxtından bir ay öncə doğulublar.